**ALTINCI ÇAĞIRIŞ**
**AZƏRBAYCAN RESPUBLİKASI**
**MİLLİ MƏCLİSİNİN**
**I SESSİYASI İCLASININ**

# PROTOKOLU № 5

*Milli Məclisin iclas salonu.*
*30 mart 2020-ci il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin Sədri* ***S.Qafarova*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 94 deputatı iştirak etmişdir.**

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.05 dəq.) |
| İştirak edir | 93 |
| Yetərsay | 83 |

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:**

1. Azərbaycan Respublikası vətəndaşlarının 2020-ci il aprelin 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırışı müddətinin uzadılması haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.
2. “Tibbi sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.
3. “Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).

4. Azərbaycan Respublikasının 1996-cı il 17 may tarixli 74-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (birinci oxunuş).

5. "Azərbaycan Respublikası Milli Məclisinin komitələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).

6. Azərbaycan Respublikasının Milli Məclisi yanında Toponimiya komissiyasının tərkibi haqqında.

7. "Quru limanlar haqqında" Hökumətlərarası Sazişə qoşulmaq barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

8. "Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında Azərbaycan Respublikasının və Türkmənistanın rabitə operatorları tərəfindən Azərbaycan–Türkmənistan marşrutu üzrə Xəzər dənizinin dibi ilə fiber-optik rabitə xətlərinin birgə tikintisi, sahibliyi və istifadəsində müştərək fəaliyyətin təşkili haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

9. 2012-ci il 27 aprel tarixində Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Bolqarıstan Respublikası Hökuməti arasında cinayətkarlıqla mübarizə sahəsində əməkdaşlıq haqqında Saziş"ə Əlavə Protokolun təsdiq edilməsi barədə" Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

10. "Azərbaycan Respublikası Hökuməti ilə Bolqarıstan Respublikası Hökuməti arasında pensiya təminatı haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

11. “Azərbaycan Respublikası Hökuməti ilə Ukrayna Nazirlər Kabineti arasında diplomatik nümayəndəlik və konsulluq müəssisələri əməkdaşlarının ailə üzvlərinin ödənişli əmək fəaliyyəti növlərini həyata keçirmələri haqqında” Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

12. “Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bunun-la bağlı hüquqi tənzimləmə haqqında” Azərbaycan Respub-likasının Qanununda dəyişiklik edilməsi barədə Azərbay-can Respublikası qanununun layihəsi haqqında.

13. “Daşınar əmlakın yüklülüyü haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

14. Azərbaycan Respublikasının İnzibati Xətalar Mə-cəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Res-publikası qanununun layihəsi barədə.

15. “Dənizçinin şəxsiyyət sənədi haqqında Əsasna-mə”nin və “Dənizçinin şəxsiyyət sənədinin spesifikasiya-sı, təsviri və nümunəsi”nin təsdiq olunması barədə” Azər-baycan Respublikasının Qanununda dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.

16. “Böyük Vətən Müharibəsində Qələbənin 75 illiyi (1945–2020)” Azərbaycan Respublikasının yubiley meda-lının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublika-sının orden və medallarının təsis edilməsi haqqında” Azər-baycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**Gündəlik haqqında.**

**Çıxış etmişdir:** Sahibə Qafarova

| | |
|---|---|
| **Təklif:** Gündəlik qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 11.07 dəq.) |
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 88 |
| Nəticə: Qəbul edildi | |

**1. Azərbaycan Respublikası vətəndaşlarının 2020-ci il aprelin 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırışı müddətinin uzadılması haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Ziyafət Əsgərov, Siyavuş Novruzov, Fazil Mustafa, Əli Hüseynli, Aydın Mirzəzadə

| | |
|---|---|
| **Təklif:** Çıxışlar 3 dəqiqə olsun | |
| **Səsvermənin nəticələri** | (saat 11.27 dəq.) |
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 4 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.29 dəq.) |
| Lehinə | 89 |
| Əleyhinə | 2 |
| Bitərəf | 2 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**2. "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Rəşad Mahmudov, Qənirə Paşayeva, Məlahət İbrahimqızı

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.37 dəq.) |
| Lehinə | 90 |
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |

Nəticə: Qəbul edildi

**3. "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli, Tahir Kərimli, Ziyafət Əsgərov, Elman Nəsirov, Razi Nu-

rullayev, Məlahət İbrahimqızı, Hikmət Məmmədov, Novruzəli Aslanov, Jalə Əliyeva, Nizami Səfərov, Ramil Həsən, Qənirə Paşayeva, Siyavuş Novruzov, Erkin Qədirli, Şahin İsmayılov, Qüdrət Həsənquliyev, Rəşad Mahmudov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.24 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**4. Azərbaycan Respublikasının 1996-cı il 17 may tarixli 74-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (birinci oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.25 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**5. "Azərbaycan Respublikası Milli Məclisinin komitələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Qüdrət Həsənquliyev

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.26 dəq.) |
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**6. Azərbaycan Respublikasının Milli Məclisi yanında Toponimiya komissiyasının tərkibi haqqında.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Musa Qasımlı, Siyavuş Novruzov, Səfa Mirzəyev, Anar İsgəndərov, Fəzail İbrahimli

**Təklif:** Qərar qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.36 dəq.) |
| Lehinə | 88 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 90 |

Nəticə: Qəbul edildi

**7. "Quru limanlar haqqında" Hökumətlərarası Sazişə qoşulmaq barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Mirkişili, Səməd Seyidov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.39 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**8. "Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında Azərbaycan Respublikasının və Türkmənistanın rabitə operatorları tərəfindən Azərbaycan–Türkmənistan marşrutu üzrə Xəzər dənizinin dibi ilə fiber-optik rabitə xətlərinin birgə tikintisi, sahibliyi və istifadəsində müştərək fəaliyyətin təşkili haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Mirkişili, Səməd Seyidov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.43 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

**9. 2012-ci il 27 aprel tarixində Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Bolqarıstan Respublikası Hökuməti arasında cinayətkarlıqla mübarizə sahəsində əməkdaşlıq haqqında Saziş"ə Əlavə Protokolun təsdiq edilməsi barədə" Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli, Səməd Seyidov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.44 dəq.) |
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

**10. "Azərbaycan Respublikası Hökuməti ilə Bolqarıstan Respublikası Hökuməti arasında pensiya təminatı haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Musa Quliyev, Səməd Seyidov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.48 dəq.) |
| Lehinə | 91 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |

Nəticə: Qəbul edildi

**11. “Azərbaycan Respublikası Hökuməti ilə Ukrayna Nazirlər Kabineti arasında diplomatik nümayəndəlik və konsulluq müəssisələri əməkdaşlarının ailə üzvlərinin ödənişli əmək fəaliyyəti növlərini həyata keçirmələri haqqında” Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Səməd Seyidov, Rauf Əliyev

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.52 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 91 |

Nəticə: Qəbul edildi

**12. “Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli, Qüdrət Həsənquliyev, Fatma Yıldırım

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.00 dəq.) |
| Lehinə | 88 |
| Əleyhinə | 3 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |

Nəticə: Qəbul edildi

**13. "Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Mirkişili, Vüqar Bayramov, Razi Nurullayev

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.08 dəq.) |
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**14. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.09 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |

Nəticə: Qəbul edildi

**15. "Dənizçinin şəxsiyyət sənədi haqqında Əsasnamə"nin və "Dənizçinin şəxsiyyət sənədinin spesifikasiyası, təsviri və nümunəsi"nin təsdiq olunması barədə" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Mirkişili, Tahir Kərimli, Hikmət Məmmədov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.15 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**16. "Böyük Vətən Müharibəsində Qələbənin 75 illiyi (1945–2020)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik**

**edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli, Fazil Mustafa, Musa Qasımlı, Bəhruz Məhərrəmov, Erkin Qədirli, Məlahət İbrahimqızı, Siyavuş Novruzov, Hikmət Məmmədov, Qüdrət Həsənquliyev, Aydın Mirzəzadə, Soltan Məmmədov, Qənirə Paşayeva, Sahib Alıyev

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.45 dəq.) |
| Lehinə | 88 |
| Əleyhinə | 1 |
| Bitərəf | 2 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |

Nəticə: Qəbul edildi

**Azərbaycan Respublikası**
**Milli Məclisinin Sədri S.QAFAROVA**

# *MİLLİ MƏCLİSİN İCLASI*

*30 mart 2020-ci il. Saat 11.*

*Azərbaycan Respublikası Milli Məclisinin Sədri* ***Sahibə Qafarova*** *sədrlik edir*

**Sədrlik edən.** Xoş gördük, hörmətli deputatlar. Xahiş edirəm, qeydiyyatdan keçək.

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.05 dəq.) |
| İştirak edir | 93 |
| Yetərsay | 83 |

Çox sağ olun, yetərsay var, iclasa başlamaq olar.

Hörmətli deputatlar, bildiyiniz kimi, sabah ölkəmizdə azərbaycanlıların soyqırımı günü qeyd ediləcəkdir. Bununla əlaqədar təklif edirəm ki, son 100 ildə və ondan qabaqkı dövrdə erməni şovinistlərinin vəhşilik əməllərinin qurbanı olmuş günahsız insanların xatirəsini 1 dəqiqəlik sükutla yad edək. *(Hamı ayağa qalxır.)*

Allah rəhmət eləsin.

Hörmətli həmkarlar, gündəlik sizə paylanıb. Xahiş edirəm, gündəliyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 11.07 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 88 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul olundu.

Hörmətli həmkarlar, yaranmış vəziyyəti nəzərə alaraq, mən sizdən xahiş etmək istəyirəm ki, bugünkü iclasımızda gündəlik ətrafında yarım saatlıq müzakirə aparmayaq. Etiraz yoxdur ki?

**Yerdən.** (*Eşidilmir.*)

**Sədrlik edən.** Çox sağ olun. Bunu da nəzərinizə çatdırım ki, sizin təklifləriniz əsasında plenar iclasların vaxtı dəyişilmişdir. Bundan sonra səhər iclası 11-dən 13-dək, axşam iclası isə nahar fasiləsindən sonra 15-dən 17-dək keçiriləcəkdir.

Hörmətli deputatlar, bəşəriyyət öz tarixinin ən təhlükəli pandemiyalarından birinə qarşı mübarizə aparır. Bu gün koronavirus infeksiyası dünyanın 190-dan çox ölkəsinə yayılmışdır. Azərbaycan rəhbərliyinin – möhtərəm Prezidentimiz İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın gördükləri tədbirlər nəticəsində ölkəmizdə bu virusun törətdiyi xəstəlik İtaliya, Böyük Britaniya, Fransa, Amerika Birləşmiş Ştatları kimi bir sıra inkişaf etmiş dövlətlərdən fərqli olaraq hələ ki çox böyük fəsadlara gətirib çıxarmamışdır.

Ölkəmizdə Ümumdünya Səhiyyə Təşkilatının bu sahədə bütün tövsiyələri yerinə yetirilir. Nazirlər Kabinetinin qərarı ilə qeyri-iş günləri aprelin 5-dək uzadılmışdır.

Tədris müəssisələrində dərslər təxirə salınmış, iri ticarət mərkəzlərinin, idman obyektlərinin, əyləncə mərkəzlərinin fəaliyyəti dayandırılmış, ictimai iaşə müəssisələrinin iş vaxtı dəyişdirilmiş, digər zəruri tədbirlər görülmüşdür. Bildiyiniz kimi, əhali arasında sosial özünütəcrid rejimi həyata keçirilir.

Milli Məclis də koronavirusa qarşı mübarizə tədbirlərində yaxından iştirak edir və siz bilirsiniz ki, xüsusi iş qaydası tətbiq edilir. Komitə və komissiyaların iclasları onlayn rejimdə keçirilir və onu da qeyd etmək istəyirəm ki, lazimi texniki təchizat yarandıqdan sonra biz Milli Məclisin plenar iclaslarının da internet üzərindən keçirilməsini planlaşdırırıq.

Hörmətli həmkarlar, bildiyiniz kimi, ölkə Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə koronavirusla mübarizəyə dəstək fondu yaradılmışdır. Milli Məclis deputatlarının və əməkdaşlarının bir qismi öz əmək haqqını bütünlüklə, digər bir qismi isə əmək haqqının müəyyən hissəsini həmin fonda köçürmüşlər. Sizə onu da deyim ki, bu günədək Milli Məclisin deputatları və əməkdaşları fonda 250 min manatdan çox vəsait köçürmüşlər.

Koronavirusa qarşı mübarizə ümumxalq işidir. Biz bunu hamımız dərk edirik. Hamı bu mübarizədə fəal iştirak etməlidir. İlk növbədə sanitariya-gigiyena qaydalarına ciddi riayət olunmalı və verilən bütün tövsiyələr yerinə yetirilməlidir. Mən inanıram ki, dövlət rəhbərliyinin gördüyü tədbirlər, eyni zamanda, milli həmrəyliyimiz, xalqımızın ümumi səyləri bu bəlanın qarşısını almağa kömək göstərəcək və biz bu sınaqdan da üzüağ çıxacağıq.

Hörmətli deputatlar, mən bir məqamı da sizin nəzərinizə çatdırmaq istəyirəm. Yaranmış vəziyyətlə əlaqədar olaraq Milli Məclisdə akkreditasiya edilmiş kütləvi

informasiya vasitələrinin nümayəndələri hazırda plenar iclas salonunda yoxdurlar. Milli Məclisin ikinci mərtəbəsindəki hollda onlar üçün monitorlar quraşdırılıb və onlar monitorlar vasitəsilə iclasın gedişini canlı olaraq izləyib lazımi məlumatları təmsil etdikləri informasiya orqanlarına göndərə bilərlər.

Hörmətli həmkarlar, gündəliyin müzakirəsinə başlaya bilərik. Gündəliyin birinci məsələsi Azərbaycan Respublikası vətəndaşlarının 2020-ci il aprelin 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırışı müddətinin uzadılması haqqında qanun layihəsidir. Layihə bir oxunuşda qəbul olunacaqdır. Məsələ barəsində Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov məruzə edəcəkdir. Ziyafət müəllim, buyurun.

**Z.Əsgərov,** *Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri.*

Təşəkkür edirəm. Hörmətli Sədr, hörmətli həmkarlar. Hörmətli Sədr, Siz artıq özünüz də qeyd elədiniz, bu gün, doğrudan da, heç kəs üçün sirr deyil ki, COVİD-19 bütün bəşəriyyət, o cümlədən bizim xalqımız üçün milli təhlükəsizlik, millətin genefondu və dövlətimizin təhlükəsizliyi məsələsidir. Əslində, bu virus bütün bəşəriyyətə qarşı bir müharibə elan edib. Təsəvvür edin ki, artıq Birləşmiş Millətlər Təşkilatının üzvü olan bütün dövlətlərdə bu virus var və bu virusa qarşı mübarizə üsulları, bunun proqnozu hələ yoxdur. Bunun proqnozunu müəyyənləşdirmək mümkün deyil. Necə olacaq, nə cür olacaq? Amma iş o yerə gəlib çatıb ki, artıq bir sıra dövlətlərdə silahlı qüvvələr bu virusa qarşı mübarizəyə başlayıblar. Yeri gəlmişkən, deyim ki, bizim qanun layihəsinin məzmununda da bu məsələ var.

Möhtərəm cənab Prezidentin göndərdiyi qanun layihəsində söhbət nədən gedir? Söhbət ondan gedir ki, siz bilirsiniz, ildə 4 dəfə əsgərlərin çağırışı və buraxılışı olur. Hazırkı situasiya belədir ki, aprelin 1-də olan çağırış may ayının 31-nə qədər uzadılır. Bunun mənası ondan ibarətdir ki, yəni hazırkı vəziyyətə görə, biz bu virusu hərbi hissələrə daşıya bilmərik. Allah göstərməsin, əgər bir virus hərbi hissələrə, Silahlı Qüvvələrə keçsə, görün, bunun hansı fəsadları və nəticələri olar. Ona görə mən hesab edirəm ki, möhtərəm cənab Prezident tərəfindən vaxtında verilmiş qərardır və biz bu qərarı dəstəkləməliyik.

Ümumiyyətlə, mən bir məsələni qeyd etmək istəyirəm ki, əgər sizin yadınızdadırsa, Çin Xalq Respublikasında bu məsələ qalxanda, yəni bu virus əmələ gələndə dəmir intizamla virusa qarşı mübarizəyə başladılar. Avropa ölkələrinə keçəndə bu məsələ bir az səngidi. Niyə səngidi, çünki Avropa ölkələrində komfort həyat tərzi mövcud idi və hesab edirdilər ki, bunun üstündən keçmək olar və bununla da məsələ yat-yut olacaq. Amma məlum oldu ki, Fransası, İngiltərəsi, nə bilim İtaliyası, İspaniyası, o birisi, indi ən ağır vəziyyət elə bu ölkələrdədir. Ona görə də bu müharibədə qalib gəlmək üçün bütün bəşəriyyət birləşməlidir. Mən COVİD-19-u, əslində, müharibə hesab edirəm, çünki o, bizə müharibə elan eləyib.

Mən, əlbəttə, birinci növbədə öz dövlətimizi deyirəm. Çünki biz iki virusa qarşı mübarizə aparırıq. Həm Ermənistan adlanan virusa, həm də koronavirusa qarşı mübarizə aparırıq. Ona görə, əgər dövlət hesab edirsə, gücümüzü iki-üç qat artırmalıyıq, biz vətəndaşlar 5 qat artırmalıyıq. Mən vətəndaşlarımızdan xahiş və tələb edirəm, dövlətin, möhtərəm Prezidentin, möhtərəm Birinci vitse-prezidentin, hökumətimizin qoyduğu tələblərə, qayda-qanunlara

əməl eləsinlər. Çünki dəmir nizam-intizam olmasa, çox çətin olacaq. Qanunun ən sərt üzü işləməlidir.

Bəzilərində belə təsəvvür var ki, nədir, bu, qripdir də, gəlib keçəcək. Bununla mübarizə aparmasaq, bu, gəlib keçməyəcək. Ona görə mən bir daha bütün vətəndaşlarımıza müraciət edirəm və tələb edirəm ki, dövlətin qoyduğu qayda-qanuna əməl eləsinlər. Yalnız bu halda, bu həmrəylik, birlik halında, dövlət xalqın yanında, xalq dövlətin yanında güclü birlik olduqda, biz inşallah, bu bəlaya qalib gələcəyik. Təşəkkür edirəm. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən**. Çox sağ olun, Ziyafət müəllim. Mən görürəm, yazılanlar var. Buyurun, Siyavuş Novruzov.

**S.Novruzov**. Təşəkkür edirəm. Hörmətli Sədr, hörmətli deputatlar. Xanım Sədr, Siz fikirlərinizdə qeyd elədiniz, Ziyafət müəllim də bu virusa qarşı mübarizə haqqında fikirlərini söylədi. Mən bu barədə çox geniş, əhatəli şəkildə danışmaq istəmirəm. Amma bir şeyi deyim, hörməli Ziyafət müəllim dedi ki, biz iki virusa qarşı mübarizə aparırıq. Əslində, bu, iki deyil, üçdür. Çünki üçüncü virus da sapı özümüzdən olan baltalardır. Bu gün Azərbaycan xalqının həmrəy olması, bir yerdə olması, bir nöqtəyə vurması əvəzinə, bəziləri həm xaricdən internet vasitəsi ilə, həm də daxildə olan vasitələrlə və çox sevincək halda bunun daha da genişlənməsi, hökumətin guya bu işin öhdəsindən gələ bilməməsi və sair haqqında fikir söyləyir. Halbuki, həmin insanların özləri xaricdə yaşadıqları evdən çölə çıxa bilmirlər, bu gün Azərbaycan xalqına və Azərbaycanda yaşayan əhaliyə dərs keçmək istəyirlər.

Qanun layihəsi ilə əlaqədar olaraq qeyd etmək istərdim ki, buna səs verəcəyik və qəbul edəcəyik. Amma mənim

bir sıra təkliflərim var. Bu, təbii ki, bugünkü vəziyyətdə zərurətdən irəli gələn bir məsələdir. Bu virus keçib gedəcək, amma bu müddət ərzində, hörmətli Ziyafət müəllim, aidiyyəti qurumlarla danışıb, "Hərbi səfərbərlik və hərbi çağırış haqqında" Qanunun təkmilləşdirilməsinə və formalaşdırılmasına, doğrudan da, ehtiyac var. Biz bilə bilmərik ki, bunu sonradan hələ nə qədər uzadacağıq. Çünki bu, artıq bizim əlimizdə deyil. Biz bunun qərarını qəbul eləyə bilmərik. O baxımdan da, ümumilikdə götürəndə, silahlı qüvvələrin formalaşması dünyada əsasən üç forma əsasında gedir. Biri müqavilə, biri səfərbərlik, çağırış, üçüncüsü isə qarışıq formadır. Bizdə indi təxminən ikinci formadır, üçüncüyə doğru gedirik.

Biz vaxtı ilə bu qanunu qəbul edəndə Azərbaycanda müqavilə ilə hərbi xidmət sahəsində çalışan insanlar təxminən 5 faiz təşkil edirdi. Bu baxımdan da, vəziyyət getdikcə dəyişib. Birinci növbədə Azərbaycan Respublikasının əhalisi artır. İkincisi, hərbi vətənpərvərlik və ordunun təchizatı, təminatı güclənib. Ən əsası odur ki, Ali Baş Komandan tərəfindən dünya ölkələrində, beynəlxalq konfranslarda Azərbaycanın ərazi bütövlüyünün müdafiə olunması, Azərbaycan ordusunun gücü, Azərbaycanda keçirilən hərbi paradlar, nümayiş olunan silahlar və digərləri gənclər arasında böyük vətənpərvərlik əhval-ruhiyyəsi yaradıbdır. Biz aprel döyüşlərində bunun şahidi olduq, gördük. Ermənilər fikirləşirdi ki, Azərbaycan, Azərbaycan gəncliyi artıq Dağlıq Qarabağı yaddan çıxaracaq və onlar bu məsələni de-yure həll edəcəklər. Lakin aprel döyüşləri bir daha göstərdi ki, gənclər nəinki yaddan çıxarmayıb, əksinə, daha da vətənpərvərdirlər. Öz Ali Baş Komandanlarına baxıb, vətənpərvərlik borclarını yerinə yetirirlər. Bu baxımdan da, hesab edirəm ki, biz

qanuna müvafiq dəyişikliklər hazırlamalıyıq, bunu həyata keçirməliyik. Bizim qanuna dəyişiklərimiz, əsasən, aşağıdakılardan ibarət olmalıdır.

Dünyanın heç bir yerində 4 dəfə çağırış yoxdur. Çağırış iki dəfə olur, yaz və payız çağırışı. Yenə deyirəm, hələ biz bilmirik, bu müddəti nə qədər uzadacağıq. Bu xəstəlik nə qədər çəkəcək? Hələ bunun proqnozunu verən yoxdur. Amma ümumilikdə götürəndə, biz qanunu hazırlayıb qəbul etməliyik ki, iki dəfəyə keçək. Çünki o vaxt orduda insanlar çatışmırdı, dörd dəfəyə zərurət, müəyyən tələbat vardı. Mən özüm 15 il Müdafiə, təhlükəsizlik və korrupsiyaya ilə mübarizə komitəsinin, 10 il də Hərbi çağırış üzrə Dövlət Komissiyasının üzvü olmuşam. Bu baxımdan, bu işləri yaxşı bilirəm. Təxminən 400 nəfərə yaxın müraciət edirdi. Keçmişdə müraciət edənlərin əksəriyyəti deyirdilər ki, məni qəsdən aparırlar. İndi müraciət eləyənərin 350 nəfəri müraciət edir ki, məni niyə aparmırlar? Yəni insanlarda vətənpərvərlik ruhu qalxıbdır. Düzdür, o, müəyyən qanunun tələbləridir ki, aparmırlar. Amma tələb nədən ibarətdir? Təsəvvür edin, 400-dən 350 nəfərin şikayəti ondan ibarətdir ki, məni niyə aparmırlar? Şikayəti ondan ibarət deyil ki, mən niyə getməliyəm.

İkinci tərəfdən, indi cənab Prezidentin, Ali Baş Komandanın rəhbərliyi ilə müəyyən təchizatlar var. Bilirsiniz ki, müqavilə əsasında götürülən Azərbaycan əsgəri hər hansı başqa bir sahədə xidmət göstərə, təsərrüfat işləri ilə, digər məsələlərlə məşğul ola bilməz. O, ancaq döyüş hazırlığını artırmalıdır. Ona görə də sərhəd kəndlərində də o insanları müqavilə əlasında, yüksək əmək haqqı ilə götürürlər, insanlar işləyir. Digər tərəfdən, Azərbaycana gətirilən yeni texnika ilə təminatı ancaq mütəxəssislər həyata keçirirlər. Azərbaycan bu gün ən müasir texnika ilə

təmin olunubdur. Bunu ancaq mütəxəssis işlədə bilər. Ona görə çağırışdan əlavə müqavilə ilə olanda, təxminən 27 faizə gəlib çıxır. O baxımdan da, mən hesab edirəm ki, bunu iki dəfəyə keçirmək daha məqsədəuyğun olar, yaz, payız çağırışı.

Həm də orduda xidmət eləyənlər yaxşı bilirlər ki, dislokasiya məsələsi var. Ön cəbhədən aparmaq, ön cəbhəyə qaytarmaq, iki aydan bir bunu dəyişmək çox çətinlik yaradır. Təzə alışır, növbəti hissə gedir onun yerinə, növbəti hissə gəlir bunun yerinə. Amma 6 ay olanda, iki ay təlim keçdikdən sonra 4 ay müddətində artıq dislokasiyanı tam müəyyənləşdirə bilir.

İki əlavə təklifim var. Biri ondan ibarətdir ki, biz qanunda qəbul eləmişik, – bu da vətəndaşların tələbidir, – üç uşağı olan hərbi xidmətə çağırılmır, yəni möhlət hüququ var. Əvvəllər iki idi, sonradan biz bunu üçə qaldırdıq. Amma iki uşağı saxlamaq elə özü bir qəhrəmanlıqdır. Gənc ailə başçısıdır, evdə iki övladı var, gedir cəbhə bölgəsinə, ya hansısa bir yerdə xidmət etməyə. Hansı keyfiyyəti göstərmək olar, çünki onun fikri ancaq ailəsinin, övladlarının yanında olacaq. Ona görə biz buna qayıtmalıyıq. Bu məsələyə mütləq toxunmalıyıq, gələcəkdə düzəltməliyik ki, iki uşaq məsələsi öz həllini tapsın.

Bir məsələ də, hörmətli Sədr. Mən İctimai birliklər və dini qurumlar komitənin sədri olaraq ayrı-ayrı ölkələrdə tez-tez dini konfessiyaların nümayəndələri ilə görüşürdüm. Onların tələbləri var. Azərbaycanda, doğrudan da, çox böyük işlər görülür. Hörmətli Birinci vitse-prezidentin rəhbərliyi altında sivilizasiyalararası əlaqələr, tolerantlıqla, mültikultural dəyərlərlə bağlı işlər həyata keçirilir. Azərbaycanı hər yerdə nümunə kimi göstərirlər. Yəqin ki,

Avropa Şurasında olanda Sizin qarşınızda da o məsələlər qaldırılıb ki, Azərbaycanda alternativ xidmət haqqında qanun yoxdur. Təbii, biz çalışırıq bunları başa salmağa ki, Azərbaycanın 20 faiz ərazisi işğal olunub, bir milyondan artıq qaçqını var, Xocalı kimi soyqırım törədilib və sair. Amma onlar da kifayət qədər fakt gətirirlər ki, Gürcüstan da sizin vəziyyətdədir, qəbul edibdir, Ukrayna da sizin vəziyyətdədir, qəbul edibdir. Rusiya bütün ətrafı ilə döyüşür, Rusiyada da bu var. O baxımdan da, Azərbaycanda müxtəlif dini cərəyanlar, islamdan kənar müxtəlif dinlər var ki, təəssüflər olsun, vaxtı ilə qeydiyyatdan keçib, öz nümayəndələrinin hər hansı döyüşdə iştirakını, yaxud silah götürməsini qadağan edir. O baxımdan da, onların hüquqlarının müdafiəsi ilə əlaqədar bu məsələləri qaldırırlar. Əgər məsləhət olacaqsa, gələcəkdə bu məsələyə ətraflı baxa bilərik.

**Sədrlik edən.** Çox sağ olun, Siyavuş müəllim. Fazil müəllim, deyəsən, sualınız var. Buyurun.

**F.Mustafa.** Təşəkkür edirəm, hörmətli Sədr. Sual deyil, bir təklifdir. Yəqin ki, deputat həmkarlarım da mənimlə razılaşarlar. Ekstremal vəziyyəti nəzərə alaraq, indi bu salonda uzun müddət yığışmaq, əslində, doğru deyil. Bəlkə çıxışlar olsun, amma bütün çıxışları bundan sonra 3 dəqiqəyə endirək. 16 məsələ var. 4–5 məsələ ətrafında müzakirə mümkündür. Çünki qalanları müqavilələr, başqa məsələlərdir. Təklif edirəm, elə indidən qərar qəbul edək, bütün çıxışlara 3 dəqiqə ayıraq. Hər kəs fikrini desin, amma vaxta da, operativliyə də əməl edə bilək. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Mən bu təklifi səsə qoymaq istəyirəm. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.27 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 4 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Siyahı üzrə Aydın müəllim Mirzəzadə. Sizin sualınız var? Xahiş edirəm, sual üçün 1 dəqiqə.

**A.Mirzəzadə.** Təşəkkür edirəm, Sahibə xanım. Deputat həmkarım Fazil müəllimin təklifini mən səsləndirmək istəyirdim. Sağ olsun ki, bunu dedi. Amma mən bir qədər başqa cür demək istəyirəm. Biz xüsusi karantin rejimində yaşayırıq. Bütün ölkədə “Evdə qal” çağırışı var və biz onlara nümunə olmalıyıq. Mən təklif edirəm ki, müzakirəyə qoyulan məsələlər üzrə o deputatlara söz verilsin ki, onlar bunun əleyhinə səs verəcəklər, yaxud da bitərəf qalacaqlar. Əgər biz bunun lehinə səs verəcəyiksə, cənab Prezidentin koronavirusa qarşı mübarizə siyasətini dəstəkləyiriksə, hesab edirəm ki, geniş müzakirələrə ehtiyac yoxdur. Sadəcə olaraq, kim əleyhinə səs verəcəksə, həmin insan çıxış etsin, qalanları isə bunu dəstəkləyir. Səs verək, bununla da iclası bitirək. Təşəkkür edirəm.

**Sədrlik edən.** Təklifinizə görə çox sağ olun. İş burasındadır ki, Nizamnamədə tamamilə ayrı cürdür. Amma belə bir təklif varsa, mən istərdim, Əli müəllim, Siz birinci müavin kimi qanunvericilik baxımından buna öz münasibətinizi bildirəsiniz. Lazımdırsa, biz bunu səsə qoyarıq.

**Ə.Hüseynli,** *Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri.*

Çox sağ olun, hörmətli Sahibə xanım. Əslində, həqiqətən də, müzakirə olunan məsələlərlə bağlı kim isə bitərəf, əleyhinə deyilsə, belə bir şəraitdə hesab edirəm ki, bizim səsvermə ilə münasibət bildirməyimiz daha məqsədəmüvafiq olardı. Ona görə, məncə, Sahibə xanım, bu təklifi dəstəkləmək lazımdır və bu bizim operativ işimizə də kömək olar.

**Sədrlik edən.** Çox sağ olun. Hamı razıdırsa, onda xahiş edirəm, bu məsələni biz səsə qoyaq.

| **Səsvermənin nəticələri** | (saat 11.29 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 2 |
| Bitərəf | 2 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Biz ikinci məsələyə keçirik. İkinci məsələ "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədədir. Bu qanun layihəsi də bir oxunuşda qəbul olunacaqdır. Məsələ barəsində məruzə etmək üçün Milli Məclisin Səhiyyə komitəsi sədrinin müavini Rəşad Mahmudova söz verilir. Rəşad müəllim, buyurun.

**R.Mahmudov,** *Milli Məclisin Səhiyyə komitəsi sədrinin müavini.*

Çox hörməti sədarət, dəyərli millət vəkilləri! Bir az əvvəl həm xanım Sədrin, həm də həmkarlarımızın dediyi

kimi, bu gün bütün dünya ölkələri üçün çox təhlükəli bir vəziyyət yaranıb və bu vəziyyətlə əlaqədar olaraq ölkəmizin bütün hökumət qurumları koordinasiya olunmaqla, hələ proqnozu, müddəti bəlli olmayan bir mübarizə içindədir. Hamıya da məlumdur ki, bu mübarizənin mərkəzində, ön cəbhədə səhiyyəçilər durur. Hazırda həm Səhiyyə Nazirliyi, həm də İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və onun tabeliyində olan TƏBİB publik hüquqi şəxsi, bütün tibb işçiləri ola biləcək problemlərin qarşısının alınması, ölkədə pandemik vəziyyət ağırlaşdığı zaman ona qarşı tibbi tədbirlərin görülməsi və bununla birlikdə, sadəcə, koronavirusla mübarizə üçün deyil, həm də ölkədə davam edən səhiyyə problemlərinin, – hər kəsin günlük səhiyyə problemləri var, – həllinin davamlılığının saxlanması üçün ciddi işlər gedir. Bunları nəzərə alaraq, “Tibbi sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada icbari tibbi sığortanın ölkə üzrə inzibati ərazi vahidlərində mərhələli şəkildə tətbiq olunmasında bir sıra çətinliklər əmələ gəlmişdir. Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 27-ci bəndini rəhbər tutaraq, var olan vəziyyətə görə belə bir qərar alır. “Tibbi sığorta haqqında” Azərbaycan Respublikası Qanununun 16-4-cü maddəsində aşağıdakı dəyişikliklər edilsin:

Birinci, 16-4.1-ci maddədə “2020” rəqəmi “2021” rəqəmi ilə, ikinci, 16-4.3-cü maddənin birinci cümləsində “2021” rəqəmi “2022” rəqəmi ilə, üçüncü, 16-4.4-cü maddədə “2020-ci il aprelin 1-dən” sözləri “2021-ci il yanvarın 1-dən” sözləri ilə əvəz edilsin. Sonuncu, 16-4.5-ci maddədə “2023” rəqəmi “2024” rəqəmi ilə əvəz edilir.

Bütün millət vəkillərinə paylanmış arayışda mövcud

mətnlə təklif olunan mətn arasında qarşılıqlı müqayisə verilmişdir. Səhiyyə komitəsində də bütün komitə üzvləri tərəfindən bu qanun layihəsinin plenar iclasa çıxarılmasının lehinə səs verildiyini də nəzərinizə çatdırmaq istəyirəm. Qanunun müddəalarında nəzərdə tutulmuş müddətin uzadılmasını məqsədəmüvafiq hesab edərək, bütün millət vəkillərini yekdilliklə bu dəyişikliyə səs verməyə çağırıram. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Təkid eləyən yoxdursa...

**Yerdən.** (*Eşidilmir.*)

**Sədrlik edən.** Qənirə xanım, sualınız var, mən görürəm. Amma reqlamenti bilirsiniz, 1 dəqiqə.

**Q.Paşayeva.** Çox hörmətli Sahibə xanım, mənim, sadəcə, bir təklifim var. Yeni klinikanın açılışında cənab Prezidentimiz hamımız üçün gözəl bir örnək oldu. Yenə nümunəvi bir addım atdı və koronavirusla mübarizənin ön cəbhəsində olan həkimləri, tibb işçilərini onların fədakarlığına görə ayaqda alqışladı. Mən düşünürəm ki, bu gün elə bu müzakirədə bu mövzu keçdi, millət vəkilləri olaraq o fədakar insanları biz də cənab Prezidentin o nümunəvi addımına qoşularaq, alqışlayaraqsa, bu onlara çox böyük mənəvi stimul olar. Bu təklifi irəli sürmək istərdim. (*Alqışlar.*)

**Sədrlik edən.** Çox sağ olun, Qənirə xanım. Artıq 3 nəfər suala yazılıb. Təklif də var idi, səsə qoyaq. Qənirə xanım, yenə də mən Sizə söz verdim. Səsə qoyuruq.

**Yerdən.** (*Eşidilmir.*)

**Sədrlik edən.** Sual nə ilə bağlıdır? Sual Rəşad müəllimə ünvanlanacaq? Məlahət xanım, buyurun onda.

**M.İbrahimqızı.** Çox sağ olun, xanım Sədr. Hörmətli Sahibə xanım, mənim sualım nədən ibarətdir? Bu gün dünyanı bürüyən, tüğyan edən bu pandemiya şəraitində bir

çox ölkələrdə, eləcə də Türkiyədə pandemiya ilə mübarizədə görünməyən qəhrəmanlar, fədakar tibb işçiləri əgər dünyasını dəyişərlərsə, – çünki artıq bilirsiniz ki, bir çox ölkələrdə hədsiz dərəcə çoxsaylı həkimlər bu xəstəliklə bağlı dünyasını dəyişib, – onlara xüsusi status verilib. Mən təklif edirəm ki, qanunvericilikdə fədakarlıqla çalışanlara xüsusi statuslar verilməsi ilə bağlı dəyişiklik olsun. Çünki Türkiyədə çalışan həkimlərə hətta qazi, rəhmətə gedənlərə isə şəhid statusu verilir. Xahiş edirəm, bunu nəzərə alasınız.

**Sədrlik edən.** Jalə xanım, Siz həm çıxışa, həm də suala yazılmısınız. Sizin sualınız sırf qanunla bağlıdır. Rəşad müəllimə aiddir? Yoxsa, təklifdir, çıxışdır?

**Yerdən.** (*Eşidilmir.*)

**Sədrlik edən.** Gəlin, səsə qoyaq, Jalə xanım. Əgər sualınız varsa, xahiş edirəm, yazılı formada sonra verərsiniz. Səsə qoyuruq.

| **Səsvermənin nəticələri** | (saat 11.37 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Hörmətli həmkarlar, gündəliyin 3-cü, 4-cü və 5-ci məsələləri parlament və deputatlıq fəaliyyəti ilə bağlı qanunlara həsr edilmişdir. “Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında” Qanunda, Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsin-

də, “Azərbaycan Respublikası  Milli Məclisinin komitələri haqqında” Qanunda dəyişikliklər edilməsi nəzərdə tutulur. Hər 3 məsələ barəsində Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli məruzə edəcəkdir. Müzakirə birlikdə aparılacaq, ancaq səsvermə, ənənəvi olaraq, bizim həmişə elədiyimiz kimi, ayrılıqda keçiriləcəkdir. Əli müəllim, buyurun.

**Ə.Hüseynli.** Çox sağ olun, hörmətli Sahibə xanım. Hörmətli həmkarlar, bu 3 layihə Milli Məclis Sədrinin tapşırığı əsasında Hüquq siyasəti və dövlət quruculuğu komitəsi tərəfindən hazırlanmışdır. Mən fürsətdən istifadə edib, komitə üzvlərinə, bizim Aparatın əməkdaşlarına təşəkkür edirəm ki, bu işin operativ hazırlanıb təqdim olunmasında yardımçı olublar.

Bu 3 layihədə həll olunan birinci məsələ vəziyyətlə bağlı epidemiya əleyhinə rejimin, karantin rejiminin tətbiqinin Milli Məclisin deputatlarına şamil edilməməsi məsələsi idi. Məlumat üçün deyə bilərəm ki, burada istifadə etdiyimiz ifadə, yəni epidemiya əleyhinə rejim, sanitariya-gigiyena və karantin rejimi, bax, bu ifadələr martın 19-da İnzibati Xətalar Məcəlləsində bizim etdiyimiz dəyişiklikdə istifadə etdiyimiz həmin anlayışlardır. Beləliklə, təklif olunur ki, bu rejimlərin tətbiqi ilə əlaqədar məhdudlaşdırıcı tədbirlər Milli Məclisin deputatlarına şamil edilməsin.

Digər iki layihədə, yəni Daxili Nizamnamədə və komitələr haqqında qanunda isə 2 məsələ həllini tapır. Mən bunları oxumuram, çünki arayışlar sizə təqdim edilib, tanış olmusunuz. Birinci həll olunan məsələ ondan ibarətdir ki, Milli Məclisin sədri 42 millət vəkilinin, deputatın müraciəti əsasında Milli Məclisin iclaslarının və

komitə iclaslarının müəyyən dövr üçün real vaxt rejimində internet vasitəsi ilə keçirilməsi barədə sərəncam qəbul edir. Elə bir səlahiyyət Milli Məclisin Sədrində və deputatlar müraciət etdiyi təqdirdədir. Burada sizə paylanmış variantda "tələb" sözü yazılıb. Amma Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsi sədrinin müavini Qüdrət Həsənquliyevin təklifi olmuşdur ki, bu, müraciət olsun. Biz onu işçi qaydasında nəzərə almışıq. Sadəcə, sizə paylanan variantda köhnədir. Bu, birinci məsələ.

İkinci məsələ isə ondan ibarətdir ki, bu rejimdə, yəni real vaxt rejimində keçirilən iclaslarda səsvermə deputatların gücləndirilmiş elektron imzaları vasitəsi ilə həyata keçirilir. Beləliklə, bu layihələrdə biz həm Milli Məclisin iclaslarının, həm də komitə iclaslarının internet üzərindən və gücləndirilmiş elektron imzalar vasitəsi ilə həyata keçirməsi məsələsini həll edirik. İkincisi, belə bir məsələ deputatların müraciəti və Milli Məclis Sədrinin sərəncamı əsasında həyata keçirilə bilər.

Hesab edirəm ki, komitəmizin təqdim etdiyi bu 3 layihə mövcud şəraitdə Milli Məclisin tam tərkibdə fəaliyyətini və internet üzərindən fəaliyyətini təmin edən əhəmiyyətli təkliflərdir. Hörmətli həmkarlardan bu layihələri dəstəkləməyi xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim. 8 nəfər çıxış eləmək istəyən var. Xahiş edirəm, hamı reqlamentə riayət eləsin – 3 dəqiqə. Tahir Kərimli, buyurun.

**T.Kərimli.** Təşəkkür edirəm. Hörmətli Sədr, hörmətli deputatlar. Birincisi, elə sual şəklindədir. Bu məhdudiyyətlərin deputatlara tətbiq olunmaması fövqəladə vəziyyət elan olunsa da, davam edəcəkmi? Ona da aiddirmi? Çünki, ümumiyyətlə, açığını deyək ki, indiki tətbiq olunan

sanitariya-gigiyena ilə bağlı və digər karantin rejimində müəyyən qanunun, yəni Konstitusiyanın 112-ci maddəsindən doğan tələblər, elementlər var, əslində. Amma bilmək istərdim ki, sabah fövqəladə vəziyyət elan olunanda da "bu məhdudiyyətlər deputatlara şamil edilmir" müddəası öz gücündə qalacaqmı?

İkincisi, bir sıra onlayn məsələlərə və internet üzərindən iclasların keçirilməsinə toxunuruq. Məni maraqlandırır, sabah elə bir məsələ ola bilər ki, qapalı müzakirə tələb eləsin, həmin qapalı müzakirənin təhlükəsizliyi onlayn şəraitində hansı qaydada təmin oluna bilər və bu qanunvericiliyimizdə necə öz əksini tapmalıdır? Fürsətdən istifadə edib, bir söz deyirəm və Sahibə xanıma təşəkkür edirəm, 31 martı xatırlatdı.

Bunu da demək istərdim, sabah bilirsiniz ki, qondarma rejim həm də özünün "seçkilərini" keçirir. Bizdə uzun müddətdir, bəşəriyyət əleyhinə cinayətlərlə bağlı qanun layihəsi hazırlanır və hesab edirəm ki, doğrudan da, geniş şəkildə soyqırım haqqında ana qanunu qəbul eləmək zərurəti var. Burada təklif oldu, ancaq tənqidi məsələlər deyilsin. Onu da deyim, biz hökumətin, qərargahın təkliflərinə uyuruq və yerinə yetiririk. Hətta burada da yerinə yetiririk. Amma mən narahatam ki, hökumət üzvləri özləri oturanda lap yaxın məsafədə otururlar. Biz isə görürsünüz, burada da aralı otururuq. O, insanlara psixoloji təsir edir ki, yaxşı, bunlar özləri çox yaxın oturur, amma bizdən tələb edirlər.

Başqa bir məsələ 65 yaşdan yuxarı məsələsidir. Məncə, 65 yaş məsələsi getməlidir. Bu, pensiyaçılara aid olmalıdır. Amma bu, əlbəttə, tövsiyə xarakterlidir. Yəni imperativ xarakter daşımamalıdır. Nəhayət, bəzi məsələlər var. Mənim məlumatıma görə, bu saat bəzi zonalarda, o

cümlədən 20-ci sahədə, Şanxay, nə bilim digər sahələrdə dezinfeksiya çox zəif gedir. Dezinfeksiya işinə kömək eləmək lazımdır.

Bundan başqa, biz bilirik ki, karantin rejimində görürsünüz, 5–6 adam birdən müalicə olunur. Soyuq, bəzən digər şərait olur və orada biri xəstə olsa, iraq olsun, o birilərinə keçə bilər. Ona diqqət eləmək lazımdır. Bundan sonra, burada Abşeron yarımadasında profilaktoriyalar bağlanıb, deyək ki, maşınlar sınanda o harada düzələcək? Bu cür qurumların işinə kömək eləmək lazımdır. Mən hesab edirəm ki, dezinfeksiya işini yarmarkalarda da eləmək lazımdır. Rayonlardan gəlir və qayıdırlar. Yəni qidalar gətirir, aparırlar. Bunlar özləri ilə, iraq olsun, xəstəlik gətirib, gedib rayonlarda yaya da bilərlər. Yarmarkalarda görürük. Bu məsələyə də çox ciddi əməl eləmək lazımdır.

**Sədrlik edən.** Çox sağ olun. Ziyafət müəllim, buyurun, Sizin sualınız var?

**Z.Əsgərov.** Hörmətli Sədr, çox sağ olun, təşəkkür edirəm. Mənim bir sualım var, vaxtınızı çox almaq istəmirəm. Əli müəllim, bu Nizamnaməyə edilən dəyişiklikdə, 1.1.3-cü maddəyə aşağıdakı məzmunda səkkizinci hissə əlavə edilir. Deputatların gücləndirilmiş elektron imzasından söhbət gedir. Nə deməkdir bu gücləndirilmiş? Olmazmı təsdiq edilmiş imzalarından sohbət getsin? Bu gücləndirilmiş imza bir az, nə isə, necə baxırsınız bu məsələyə?

**Sədrlik edən.** Çox sağ olun, Ziyafət müəllim. Bütün suallara Əli müəllim sonra cavab verəcək. Elman Nəsirov, buyurun.

**E.Nəsirov.** Hörmətli Sədr, hörmətli millət vəkilləri! Hesab edirəm ki, bu gün müzakirə olunan məsələlər yeni şəraitdən irəli gəlir və operativ olmaq üçün birbaşa təkliflərimə keçirəm.

"Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında" Azərbaycan Respublikasının Qanununda təklif edilmiş dəyişikliklərlə bağlı konkret bir-iki təklifim var. Hesab edirəm, bizə təqdim olunan bu təklifdə iki dəfə rejim ifadəsindən istifadə olunur ki, bu da dilçilik baxımından düzgün deyil. Bir cümlədə iki dəfə rejim ifadəsi işlədilir.

İkincisi, üç halda məhdudiyyətlərlə bağlı mövqe ifadə olunub. Bu, epidemiya əleyhinə rejimin tətbiqi, sanitariya rejiminin tətbiqi və karantin rejiminin tətbiqidir. Ona görə də mən təklif edirəm ki, burada cümlədə belə bir düzəliş olsun, "sanitariya-epidemioloji və karantin rejimlərinin tətbiqi, habelə bu kimi digər tədbirlərlə əlaqədar". Çünki biz "bu kimi digər tədbirlər" yazmayanda müəyyən mənada gələcəkdə ata biləcəyimiz addımlara məhdudiyyət qoymuş oluruq. Yəni vəziyyət dəyişildi, hörmətli həmkarım Tahir müəllimin fikri ilə şərikəm. Cənab Prezident Novruz bayramı ilə bağlı xalqı təbrik müraciətində qeyd etdi ki, vəziyyətdən asılı olaraq fövqəladə vəziyyətin tətbiqi də istisna olunmur. Yəni gələcəkdə bu vəziyyət reallaşsa, hesab edirəm ki, fövqəladə hal ilə, deputatların davranışı ilə bağlı məsələlərə aydınlıq gəlməlidir.

Növbəti təklifim Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsində dəyişikliklərlə bağlıdır. Hesab edirəm ki, burada "Milli Məclisin Sədri sərəncam qəbul edir" ifadəsi düzgün deyil. "Milli Məclisin Sədri sərəncam qəbul edir" yox, "sərəncam verir" və ya "sərəncam imzalayır" kimi olsa, daha düzgündür. Qərar qəbul edirlər, sərəncam qəbul olunmur. Bunları söyləmək istəyərdim, təşəkkür edirəm.

**Sədrilk edən.** Sağ olun, Elman müəllim. Razi Nurullayev, buyurun.

**R.Nurullayev**. Təşəkkür edirəm. Hörmətli Sədr, hörmətli millət vəkilləri! Zənnimcə, bu gün insanlara daha yaxın olmaq, sözünü eşitdirə bilmək və seçildikləri ərazidə insanların qayğıları ilə daha səmərəli məşğul olmaq üçün millət vəkillərinin səlahiyyətləri və statusu daha üstün səviyyədə olmalıdır. Bu gün, sadəcə, neçə illər seyrçi kimi izlədiyim bir həqiqəti demək istəyirəm. Ölkə Prezidenti rayonlara, şəhərlərə səfər edən zaman həmin dairənin deputatının də cənab Prezidentin yanında olması vacibdir. Mövcud problemlərin həlli, çatdırılması, müzakirəsi, tezləşdirilməsi və səmərəliliyi üçün deputatların belə zamanlarda ölkə Prezidenti ilə təması çox faydalıdır. Əlavə olaraq bu cür davranış və iştirak həm parlamentin, həm də ayrılıqda deputatların nüfuzunun artmasına kömək edər. Bəzi hörmətli millət vəkillərinin belə görüşlərdə iştirak etməsini müşahidə etmişəm. Təklif edirəm ki, tutduğu mövqedən, partiyalılığından asılı olmayaraq, bu imkan bütün millət vəkillərinə şamil edilsin. Bu təklifin aidiyyəti qurumlarla müzakirə olunmasını və razılaşdırılmasını təklif edirəm.

Bir də, hörmətli Sədr, tibbi sığorta haqqında bir məsələni demək istəyirəm. Mən əleyhinə səs verdim. Çünki bu gün düşünürəm, məntiqlidir ki, 2021-ci ilə qədər təxirə salınsın, amma 1999-cu ildə Prezidentin fərmanı olub ki, icbari tibbi sığorta tətbiq edilsin. 20 ildə ölkənin imkanlarının olmasına baxmayaraq, bu, tətbiq edilməyib və günahkarlar da bəlli deyil. Onun üçün də mən əleyhinə səs verdim.

İnsanların yükünü azaltmaq üçün dövlət başçısının sərəncamı ilə koronavirusun səbəb olduğu zərərlərin qarşılanması üçün 1 milyard manat vəsait ayrılıb. Bu vəsait 4 istiqamət üzrə xərclənəcək. İstiqamətlərdən birinin zərər-

çəkən vətəndaşlara birbaşa maddi yardım şəklində olması vacibdir. Dövlət işində, müəssisələrdə işləyənlər bir ay evdə qalsalar da, əmək haqları saxlanılıb. Bu, gözəl, amma 1 milyon 600 min nəfər muzdlu işçi və rəsmi olaraq da 5 faiz işsiz var. Zənnimcə, işsizlərin sayı daha çoxdur. Hazırda onlar çətin sosial durum ilə üz-üzədirlər. Onun üçün da onlara aylıq yardımın verilməsi ən vacib məsələdir. İnanıram ki, hökumət müzakirələrinin sonunda bu məsələ ilə bağlı müsbət qərar veriləcək.

Əlavə olaraq, işıq və qaz limitinin ən azından karantin müddəti ərzində aradan qaldırılmasının, ya da sərfiyyatın sıfırlanmasının müzakirəsinə ehtiyac var. Hər kəs evdə qaldığından sərfiyyat da iki-üç dəfə artacaq. Vətəndaşlar birmənalı olaraq bunu ödəməkdə ciddi çətinliklə üzləşəcəklər. Onun üçün də mən həm də bankların kreditlərinin dondurulması ilə bağlı demək istəyirəm. Çünki hazırda insanlar bunu ödəyə bilməyəcək. Mağazalar, ticarət şəbəkələri bunu müəyyən müddətə dondurub. İndi bunun banklar tərəfindən...

**Sədrlik edən.** Sağ olun. Məlahət xanım, sualınız var, deyəsən.

**M.İbrahimqızı.** Çox sağ olun. Mən hörmətli Əli müəllimin təqdim etdiyi hər iki layihəyənin, sözsüz ki, lehinə səs verəcəyəm. Burada bayaq səhv etmirəmsə, Elman müəllim də vurğuladı, real vaxt rejimi. Bu real vaxt rejimi nə deməkdir? Olmazmı ki, elə bu yazılsın, parlamentin iclasları, indi yeni qayda ilə saat 11-dən saat 17-yə qədər olacaq. Bu, real vaxt nə deməkdir? Çünki real vaxt bəlkə birinə uyğun oldu, dedi ki, onlayn iclasdır, mənim vaxtım 11-dədir, o birisi dedi 2-dədir və sair. Elə olmazmı ki, saat 11-dən 17-yə qədər bizim iclas vaxtlarımız kimi ifadə olunsun. Mənim sualım budur. Çox sağ olun.

**S.Qafarova.** Sağ olun. Hikmət Məmmədov.

**H.Məmmədov.** Hörmətli Sədr, hörmətli millət vəkilləri! Millət vəkilinin statusu haqqında qanunda dəyişiklik edirik və burada epidemiya əleyhinə rejimdən danışırıq. Ancaq biz bilirik ki, hazırkı vəziyyət epidemiya deyil, pandemiyadır. Epidemiya, endemiya, pandemiya sözləri leksik vahid olaraq fərqli məzmun daşıyır. Bunların etimologiyasına gəldikdə, kökdə görürəm, bunlar "ep", "en" və "pan" sözlərindəndir. Əgər biz bunu pandemiya kimi qəbul ediriksə, qanun layihəsində dəyişikliyə yazmalıydıq ki, pandemiya əleyhinə rejimdə. Belə olsa, daha doğru olar, yaxud hər ehtimala qarşı bunların üçünü də yazmaq olar. Çünki biz bilirik ki, epidemiya konkret bir ərazidə yayılan xəstəlikdir. Endemiya qismən bir qitədə, məsələn, Qafqaz bölgəsində, yaxud Afrikada yayılana deyilir. Pandemiya dedikdə isə bütün dünyada yayılan bir epidemiyadan, yaxud virusdan söhbət gedir. Hazırkı vəziyyətdə reallıq pandemiyadır. Ona görə, mən düşünürəm ki, bunu pandemiya əleyhinə rejim kimi düzəltsək, daha yaxşı olar.

Ayrı bir məsələ. Doğrudan da, Milli Məclisin Sədri ya qərar verə bilər, ya sərəncam verə bilər, bunu düzəltmək lazımdır, hörmətli Elman müəllim doğru qeyd etdi.

Ayrı bir məsələyə diqqəti cəlb etmək istəyirəm. Deməli, apteklərdə tibbi maskalar çatışmır. Biz bilirik ki, Azərbaycanda bununla bağlı tədbirlər görülür. Mən maraqlandım, mənim seçicilərim müraciət edirlər ki, biz apteklərdə tibbi maskalar tapa bilmirik. Bəlli oldu ki, mənzərə belədir, apteklərə gün ərzində say ilə 50–100 arası tibbi maska verilir və o da tələbatı ödəmir. Mən buradan əlaqədar qurumlara səslənirəm. Xahiş edirəm, bu məsələni diqqətdə saxlayın. Azərbaycan Prezidenti hər cür

tədbir görübdür, istehsal ilə bağlı tədbirlər görülübdür və xahiş edirəm ki, qısa müddətdə bu məsələ öz həllini tapsın, apteklərdə tibbi maskalar əlçatan olsun. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Novruzəli Aslanov. Novruz müəllim, buyurun.

**N.Aslanov.** Hörmətli Sədr, mənə söz verdiyinizə görə, təşəkkür edirəm. Birinci dəfə çıxış etdiyimə görə, fürsətdən istifadə edib, Sizi, bütün sədarəti təbrik edirəm. Bu çətin və mürəkkəb dövrdə Sizə uğurlar və səbr diləyirəm.

Qeyd etmək, təşəkkürümü bir daha bildirmək istəyirəm ki, vaxtın dəyişilməsi ilə əlaqədar nəhayət, biz rasional bir mövqe seçdik və 11-dən 13-ə qədər və 15-dən 17-yə qədər iş davam edəcək.

Mən bir neçə kəlmə söz demək istəyirəm. Burada hörmətli Fazil müəllim tərəfindən təklif olundu ki, çıxışlar 3 dəqiqə olsun. Tamamilə razıyıq. Aydın müəllim də çox gözəl təklif etdi ki, kimin fikri varsa, söyləsin, yəni qanun layihəsinin əleyhinə olan fikirlərini söyləsin və çıxışa yazılsınlar. Amma Milli Məclis müzakirələr olan bir yerdir. Bizə qanunları onun üçün göndərirlər ki, biz müzakirə edək, bu müzakirə nəticəsində təkliflərimizi irəli sürək. Çünki, bax, görürsünüz, nə qədər bizim çıxış edən insanlar var, nə qədər səmərəli təkliflər verdik. Mən Aydın müəllimin sözünə qüvvət verərək təklif etdim, yəni kimlər ki, əleyhinə çıxış etmək istəyir, çıxış etsinlər. Amma digər insanlar, kimin ki, təklifləri var, onlar yazılı sürətdə komitələrə müraciət etsinlər. İstər onlayn sistemlə müzakirələr keçiriləndə, istərsə də yazılı surətdə və biz bunu həyata keçirə bilək.

Vaxtım var, icazənizlə, bir neçə kəlmə də söz demək istəyirəm. Biz Ümumdünya Səhiyyə Təşkilatının bir çox təkliflərinə riayət edirik və nümunəvi bir ölkə kimi

ortalığa çıxmışıq. Bu, o təşkilat tərəfindən də xüsusi olaraq qiymətləndirilib. Mən görürəm, həm onlar, həm də bizim çox tanınmış insanlar tərəfindən televiziyalarda deyirlər ki, tibbi maskaları ancaq və ancaq xəstə insanlar geyinməlidir. Əgər elədirsə, biz içəri girəndə nə üçün bu maskaları bizə payladılar. Mən hesab edirəm ki, burada məsuliyyətdən çox şey asılıdır. Hər bir insan imkan daxilində tibbi maskalardan istifadə etməlidir. Bu vacib-dir. Çünki əgər mən hansı isə bir ictimai nəqliyyat vasi-təsində gedirəmsə, xəstə deyiləmsə və mənim zəmanətim yoxdur ki, mənim yanımda duran insan xəstə deyil və o tibbi maska geyinmir. Ona görə, hesab edirəm, imkan daxilində digər insanlar da tibbi maskalardan istifadə etməlidir və tövsiyə edirəm, televiziyalarda çıxışlarda insanlara bu çağırışlar etməsinlər ki, ancaq və ancaq xəstə insanlar, yoluxan insanlar tibbi maskalardan istifadə etməlidir.

Bir neçə kəlmə də söz demək istəyirəm. Mənə elə gəlir, fövqəladə hallar haqqında qanun qəbul etməyə ehtiyac yoxdur, bunu burada müzakirə etmək heç lazım da deyil. Amma keçən iclasda bizim hörmətli millət vəkilimiz Nəsib Məhəməliyev bir yaxşı təklif verdi. Koronavirus haqqında qanun qəbul edilsə, biz orada hər cəhətdən, hər bir insanın, hər bir vətəndaşın məsuliyyətini qoya bilərik. Yoluxan insanın da, tibb işçilərinin də, ətrafda olan cəmiyyətin də, hər bir insana...

**Sədrlik edən.** Çox sağ olun, Novruz müəllim. Onu da qeyd etmək istəyirəm ki, bu gün maskaları təklif etmək mənim qərarım idi. Çünki iclasdan iki gün öncə mənə hörmətli həmkarlarım müraciət etmişdilər, soruşurdular. Ona görə mənim hörmətli həmkarlarım ilə, müavinlərlə məsləhətləşdik və belə bir qərara gəldik ki, maskaları

girişdə masaların üstünə qoyacağıq. Kim istəyər, ondan istifadə edər və düşünürəm ki, bu çox düzgün bir haldır. Bu gün hörmətli həmkarlarımız, kim istəyirsə, həmin o maskalardan istifadə edə bilər.

Çox sağ olun. Növbəti, Jalə Əliyeva. Buyurun, Jalə xanım.

**J.Əliyeva.** Təşəkkür edirəm, xanım Sədr. Mən də müzakirə etdiyimiz məsələdə "real vaxt rejimi" və "gücləndirilmiş imza" ifadələrinin bir daha nəzərdən keçirilməsini xahiş edərdim və vaxtım olduğu üçün mövcud vəziyyət ilə bağlı bir neçə fikirlərimi də səsləndirmək istəyirəm.

Hər gün vətəndaşlardan çox sayda onlayn müraciətlər alırıq. Görülən bütün tədbirlər, ölkəmizin bu xəstəliyin işğalından minimum ziyan və itki ilə qurtarması üçün mübarizə tədbirləri, əlbəttə ki, bütün vətəndaşlarımızı çox məmnun edir. Vətəndaş, sözün əsl mənasında, arxasında dövlətini, onun gücünü görməkdən məmnundur. Biz də hər bir vətəndaşın prezidenti olmağı bacaran dövlət başçısına bu günlərdə ölkənin bütünlükdə xilası üçün göstərdiyi əzmkarlığa görə, ard-arda verdiyi sərəncamlarla, tapşırıqlarla hər an vətəndaşının yanında olan ölkə Prezidenti cənab İlham Əliyevə dərin minnətdarlığımızı və təşəkkürümüzü bu mikrofondan bildirmək istəyirik.

Bu günlər həssas günlərdir. Hər bir vətəndaş, Azərbaycan insanı hər bir bəşər övladı kimi gözlənilməz hadisələrin şokunu, stresini yaşayır və bəziləri daha böyük həyəcan və təlaş içərisindədir. Söhbət aztəminatlı ailələrdən, kimsəsizlərdən, tək analardan, günəmuzd işləyən və faktiki olaraq işsiz qalan, kredit ödənişləri olan və bu qəbil sair insanlardan gedir. Bu vətəndaşlara birdəfəlik müəyyən miqdarda vəsaitin ayrılması, müavinət verilməsi və onların ərzaq məhsulları ilə təmin edilməsi, karantin

tədbirləri dövründə bir sıra ödənişlərdən azad edilmələri üçün müəyyən güzəştlərin tətbiq edilməsi təxirəsalınmaz təcili tədbirlər kimi nəzərdə tutulmalıdır. Ölkəyə kifayət qədər tibbi maska və spirt gətirilsə də, – artıq bir neçə dəfə burada bizim digər həmkarlar da söylədi, – hələ də bu məhsullarla bağlı qıtlıq yaşanır. Bu günlərdə Azərbaycanın özünün tibbi maska istehsalına başlayacağı gələn gözəl xəbərlər sırasındadır. Lakin hələlik bu maskalar istehsal edilənədək, bu məhsullarla bağlı məsələlərdə möhtəkirliyə, fürsətçiliyə son qoyulması üçün nəzarət daha da gücləndirilməlidir. Xüsusilə rayonlarda, kənd və qəsəbələrdə bu məsələnin həlli daha ciddi şəkildə diqqətdə saxlanılmalıdır.

Bu gün bütün ölkə boyu operativ qərargah fəaliyyət göstərir. Yaxşı olardı ki, bölgələrdə, hətta hər bir rayonumuzda bu operativ qərargahın, belə demək mümkünsə, bir operativ şöbəsi yaransın. Həmin rayonun ən ucqar kəndindən belə məlum situasiya ilə bağlı olaraq ortaya çıxan hər hansı problem həmin növbətçi hissə tərəfindən yerindəcə həllini tapa bilərdi.

Mən bir məsələyə də toxunmaq istəyirəm. Bu da həyat əhəmiyyətli bir çox qurumlarda, demək olar ki, 24 saat tam heyətlə işləyənlər ilə bağlıdır. Burada bir növbəçilik prinsipinin həyata keçirilməsi də yəqin ki...

**Sədrlik edən.** Sağ olun. Nizami Səfərov. Buyurun, Nizami müəllim.

**N.Səfərov**. Hörmətli Sədr, hörmətli deputatlar! Bugünkü iclasın müzakirəsinə çıxarılan dəyişiklik Milli Məclis deputatının konstitusion hüquqi statusundan irəli gəlir. Onun şəxsi mənfəəti üçün deyil, müstəsna olaraq səlahiyyətlərinin maneəsiz və davamlı icrasını təmin etmək məqsədini güdür. Bu prinsipial hüquqi yanaşmanı

təsdiq etmək üçün Azərbaycan Respublikası Konstitusiyasına müraciət etmək kifayətdir. Konstitusion tənzimləməyə uyğun olaraq Milli Məclisin müəyyən etdiyi ümumi qaydalar sırasında fövqəladə vəziyyət, hərbi vəziyyət rejimi, müdafiə və hərbi qulluq, təhlükəsizliyin əsasları nəzərdə tutulmuşdur. Bundan başqa, Milli Məclisin həll etdiyi hüquqi məsələlər sırasında müəyyən olunmuş hallarda Azərbaycan Respublikası Prezidentinin fərmanlarının təsdiqi, Azərbaycan Respublikası Prezidentinin müraciətinə əsasən müharibə elan edilməsi, sülh bağlanmasına razılıq verməsi əksini tapmışdır. Mahiyyətinə görə, Azərbaycan xalqının və dövlətinin mənafeləri baxımından müstəsna əhəmiyyət kəsb edən bu səlahiyyətlərin təxirə salınmadan yerinə yetirilməsi üçün təklif edilən layihənin qəbulu vacibdir. Xüsusi olaraq qeyd etmək istəyirəm ki, dəyişikliyin təklif olunması koronavirus pandemiyası vaxtına təsadüf etsə də, onu daha geniş prizmadan qiymətləndirmək lazımdır. Maddənin gələcək təcrübədə tədqiqi daha geniş mənanı ehtiva edir və təkcə bu gün qarşıda duran problemlə məhdudlaşmır.

Digər bir əhəmiyyətli məsələ layihədə istifadə olunan və daxili qanunvericilikdə artıq vətəndaşlıq hüququ qazanan hüquqi terminologiya ilə bağlıdır. Xatırlatmaq istərdim ki, ilk dəfə epidemiya əleyhinə rejim, sanitariya-gigiyena və karantin rejimi terminləri bir müddət əvvəl qəbul etdiyimiz Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 139-1 və İnzibati Xətalar Məcəlləsinin 211-ci maddələrində əksini tapmışdır. Öz mahiyyətinə görə qeyd etdiyim maddələr hüquq nəzəriyyəsi və praktikasında blanket normaları kateqoriyasına daxildir, yəni bu maddələrin dispozisiyasında əksini tapan terminlərin anlayışlarını müəyyən etmək üçün başqa hüquq sahəsini

tənzimləyən qanunun müddəalarına müraciət etmək lazımdır. Konkret halda müvafiq hüquqi bazanı "Sanitariya-epidemioloji salamatlıq haqqında" Qanun təşkil edir. Həmin qanun 1992-ci il noyabrın 10-da qəbul edilib və sonrakı dövrdə ona bir sıra dəyişikliklər edilsə də, mövcud vəziyyət nəzərə alınır. Bununla bağlı bu rejimlərin nədən ibarət olması haqqında müddəa təxirə salınmadan "Sanitariya-epidemioloji salamatlıq haqqında" Qanuna daxil edilməlidir. Nəzərə almaq lazımdır ki, qanunvericilik sistemində yüksələn xətt üzrə daxil edilən hüquq normalarında istifadə edilən terminlərin dəqiq anlayışları mütləq şəkildə müvafiq qanunun predmetinə aid olmalıdır. Bu yanaşmanın tətbiqi nəticəsində vahid hüquqi təcrübəni formalaşdırmaq mümkün olacaq. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sual var? Ramil Həsən. Buyurun, Ramil müəllim.

**R.Həsən.** Çox sağ olun, hörmətli Sədr. Mən Əli müəllimə çox konkret bir sual vermək istəyirəm. Biz burada müzakirə edirik internet üzərindən müvafiq edilmiş qaydada səsvermələrin keçirilməsi və bizim plenar iclasların və komitələrin iclaslarının keçirilməsi. Burda çox texniki bir sual meydana çıxır. Hesab edək ki, biz bu iclasları keçirdiyimiz zaman millət vəkilləri hərəsi bir yerdə, öz evində, yaxud öz iş otağında əyləşib və səsvermə prosesində iştirak edir. Yaxşı, bu proses davam etdiyi zaman internetdə bir problem yaranarsa, fasilə meydana gələrsə, o zaman bu proses necə həyata keçiriləcək və bu, səsvermə proseduruna mənfi təsir göstərəcəkmi, göstəməyəcəkmi? Millət vəkillərinin insanların fikir və düşüncələrini azad ifadə etməsi üçün... Bununla bağlı, xahiş edərdim, yəqin ki, Əli müəllim bunu cavablandıracaq. Çox sağ olun.

**Sədrlik edən.** İcazə verin, mən də bir açıqlama verim. İş burasındadır ki, biz təbii, bütün bunları nəzərə alacağıq və bir sıra problemlər var. Ona görə də mən elə iclasın əvvəlində dedim ki, hansısa bir texniki ləvazimat lazımdır, məsələləri həll edəndən sonra biz bunu edə biləcəyik. Əli müəllim də, təbii, bu məsələyə öz münasibətini bildirəcək. Qənirə xanım, buyurun. Qənirə Paşayeva.

**Q.Paşayeva.** Çox təşəkkür edirəm, hörmətli Sədr. Mən bütün əlavələri, bütün dəyişiklikləri dəstəkləyirəm və hesab edirəm, bunlar çox zəruridir. Bir neçə məsələyə, sadəcə, diqqət yönəldəcəyəm. Çünki bu çox vacib məsələdir. Bizi insanlarımız dinləyir. Mən keçən dəfə televiziya kanallarının birində də dedim ki, cənab Prezidentimizin son günlərdəki çıxışlarını, verdiyi mesajları hər bir insanımız diqqətlə dinləməlidir, oxumalıdır və o mesajlardan da örnək götürməlidir. Burada insanlarımızı narahat edən bəzi məsələlərlə bağlı çağırışları da səsləndirmək istəyirəm.

Bu gün cənab Prezidentimizin birbaşa göstərişi ilə dövlət qurumlarında işləyən və evdə qalmaq kampaniyası içərisində, – yəni evdə qalmaq məcburiyyətdir, zərurətdir, – olan insanların hamısının əmək haqqı dövlət tərəfindən ödəniləcək. Mən buradan böyük, imkanlı şirkətlərə üz tuturam, böyük restoranlara, böyük tikinti şirkətlərinə üz tuturam. Cənab Prezident çox gözəl vurğuladı, bu bir milli həmrəylik günüdür, o vəsaitlər, pullar, imkanlar bu gözəl dövlətimizdə qazanılıbsa, xahiş edirik, işçiləri ixtisara salmayın, işçilərin əmək haqqını verin. 1–2 ay da vəsait qazanmayın, dəstək olun. Bu, bir milli həmrəylik günüdürsə, biz hamımız burada dəstək olmalıyıq. Xırda və orta sahibkarları anlayırıq və cənab Prezidentimiz 1 milyard manat vəsait ayırdı. Yaxın günlərdə tapşırıq

verilib, bununla bağlı 4 böyük qrup ayrılıb və o təkliflər paketi hazırlanır ki, kiçik və orta sahibkarlara, işsiz qalan insanlara necə dəstək olaq. Amma böyük şirkətlər bu məsələdə məsuliyyəti dövlətin üzərinə qoymadan böyük hissəsini öz üzərilərinə götürməlidirlər.

İkinci bir məsələ barəsində çağırış etmək istəyirəm. Bəli, cənab Prezident vurğuladı, biz birlikdə güclüyük. Ölkəmizdə kasıb ailələrlə bərabər imkanlı ailələr də az deyil, hər bir imkanı çatan ailə bu çətin günlərdə 2–3 ailəyə dəstək olsa, mənə elə gəlir ki, heç bir şey itirməz, amma insanlıq, vətəndaşlıq adına çox şey qazanar. Dövlətimiz bu gün böyük bir pandemiya ilə mübarizə aparır. Biz hər şeyi dövlətdən gözləsək, o zaman bu, doğru olmaz. Bu məsuliyyətin bir hissəsini imkanlı insanlar, böyük şirkətlər bölüşməlidir, milli həmrəylik deyiriksə, biz hamımız bölüşməliyik. Çünki bəzi insanlar, kiçik sahibkarlar kirayə haqqını ödəyə bilmirlər, çətin vəziyyətdə qalıblar, banklara vəsaiti ödəyə bilmirlər...

**Sədrlik edən.** Sağ olun. Siyavuş Novruzov. Buyurun, Siyavuş müəllim.

**S.Novruzov.** Təşəkkür edirəm, hörmətli Sədr. Mən çıxışımı tamam başqa formada quracağam.

Biz birinci, bir neçə iclas yığışmışıq və növbəti iclasımızdır. Mən burada, əsasən, "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında" Qanuna toxunmaq istəyirəm. Hörmətli Nizami müəllim onun detallarına toxundu. Mən də bir neçə detalını deməliyəm. Deputat statusu, deputatın etik davranış qaydaları ilə bağlı biz kifayət qədər qanun qəbul etmişik, var, fəaliyyət göstərir. Hesab edirəm ki, fəaliyyətdə olan hazırkı parlamentdə bunlara biz ciddi şəkildə nəzarət etməliyik. Hər birimiz çalışmalıyıq ki, deputat adını qoruyaq və ona

hörmət gətirək. Çünki deputat adı çəkiləndə demirlər filankəs, elə hamıya aid olunur. Bu baxımdan da, bu məsələlərə keçmiş ənənələrdən bir az uzaqlaşıb yeni düşüncə ilə yanaşmaq lazımdır.

Deputatın qarşısında duran vəzifə nədir? Cənab Prezidentin həyata keçirdiyi islahatları, xarici, daxili siyasətin müdafiə etsin, seçicisinin arzu və istəklərini, təkliflərini Milli Məclisə çatdırsın, hökumət qarşısında məsələlər qaldırsın. Amma əfsuslar olsun ki, son vaxtlar bir qrup deputatlarımız internetdə düşüblər bir nəfərin dalınca, onun müdafiəsinə girişiblər. Sən hüquq müdafiə təşkilatısan, hansı təşkilatsan, nəsən? Ona görə də, Əli müəllim, xahiş edirəm, bunu sərtləşdirin ki, hər kəs bilsin. Seçicin deyil, sual olunur, o ərazidən seçilməmisən, bunun məsələyə nə aidiyyəti var ki, deputatın və deputatların adından istifadə edirlər, deputatlar, indi mən ad çəkmək istəmirəm, filankəslər, filankəslər filankəsin müdafiəsinə qalxdılar və sair. Biz cənab Prezidentin, Birinci vitse-prezidentin müdafiəsinə qalxmalıyıq, onların həyata keçirdiyi islahatların müdafiəsinə qalxmalıyıq. Bu gün xaricdə oturub onlara qarşı təxribat törədən insanlara qarşı mübarizə aparmalıyıq və birlikdə, bir yerdə olmalıyıq. Biz ayrı-ayrı fərdlərin müdafiəsinə qalxmamalıyıq. Bu bizim statusumuza uyğun deyil. Xahişı edirəm, Əli müəllim, gələcəkdə bunların hamısını nəzərə alasınız. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Siyavuş müəllim. Erkin Qədirli. Buyurun, Erkin müəllim.

**E.Qədirli.** Çox sağ olun, xanım Sədr. Əslində, hörmətli millət vəkili Nizami Səfərovdan sonra mən danışmaya da bilərdim. Amma söz aldımsa, qısa tamamlayacağam. Nizami Səfərov çox doğru buyurdu ki, Konstitusiya müddəaları var və bütün qanunlar ona uyğun gəlməlidir.

Əslində, Konstitusiya müddəaları deputat statusunun fövqəladə vəziyyət halında qadağan etdiyini qadağan etməyə əsas verir. Amma, eyni zamanda, qanunların və normaların şaqulu əlaqələndirilməsini də görməliyik. “Fövqəladə vəziyyət haqqında” Qanuna baxsanız, müvafiq icra hakimiyyəti orqanlarının, yerli özünüidarəetmə orqanlarının, siyasi partiyaların və qeyri-hökumət təşkilatlarının fəaliyyətinin tam və ya qismən dayandırılması nəzərdə tutulub, amma məhkəmə və qanunvericilik hakimiyyəti ilə bağlı belə bir müddəa yoxdur və ola da bilməz. Odur ki, hakimlər və deputatlar fövqəladə vəziyyət zamanı qanunla onlara verilən səlahiyyətlərdən və imtiyazlardan tam yararlana bilərlər. Burada narahatlığa ehtiyac yoxdur və mən, ümumiyyətlə, hər şey haqqında qanun qəbul edilməsinin və ya qanunda hər şeyin yazılmasının tərəfdarı deyiləm, bunu doğru da saymıram. Bir çox halda heç mümkün də deyil. Odur ki, məncə, biz komitədə bunu müzakirə etmişdik və dəstəkləmişdik. Elə hər kəsi yazıldığı kimi də qəbul etməyə çağırıram. Fövqəladə vəziyyət rejimi ilə bağlı burada əlavəyə ehtiyac görmürəm. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Şahin İsmayılov. Buyurun.

**S.İsmayılov.** Çox sağ olun, xanım Sədr. Hörmətli həmkarlar, qısa olaraq bir məsələ ilə bağlı fikirlərimi ifadə etmək istərdim. Həqiqətən də,  dövr, zaman texnologiya dövrüdür, internet əsridir. Əslində, proseslərin onlayn rejimə keçməsi kifayət qədər yaxşı bir haldır. Mən, sadəcə, bir təklif vermək istəyirəm. Bilirəm, bu sahədə işlər gedir. Əslində, onlayn rejiminə keçmək çox asan bir proses deyil, bunun böyük bir texniki tərəfi var və yaxşı bir işin ortaya qoyulması baxımından, buna kifayət qədər zaman da tələb olunur. Gələcəkdə hər bir deputatla bağlı

onlayn kabinetin yaradılması, vətəndaşların onlayn müraciət etməsi imkanının yaradılması, proseslərin tam elektronlaşdırılması, düşünürəm, bizim ümumi işimizə kifayət qədər fayda vermiş olardı.

İkinci bir tərəfdən, bilirsiniz, artıq uzun müddətdir, təhsil müəssisələləri özünümaliyyələşməyə keçiblər və onların kifayət qədər imkanları var ki, təhsil proseslərini tam elektronlaşdırsınlar. Amma koronavirus epidemiyası ərəfəsində biz, əfsuslar olsun, yalnız bir neçə ali təhsil müəssisəsində təhsil prosesinin elektronlaşmasını gördük. Yaxşı olardı ki, təhsil müəssisələri bu prosesə kifayət qədər diqqət ayırsınlar. Çünki dünyada əksər ali təhsil müəssislərində proseslər artıq elektronlaşdırılıbdır və tələbələr evlərindən çıxmadan lazımi tədris materiallarını qəbul edə və dərslərinə hazırlaşa, eyni zamanda, cavab verib imtahan prosesini həyata keçirə bilərlər. Gələcəkdə bu prosesin sürətlənməsini ümid edirəm və hər bir böhranda, hər bir çətin vəziyyətdə yaxşı məqam budur ki, boşluqlar görünür, nəticə çıxarılır və bu nəticələrin həlli istiqamətində də addımlar atılır. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun, Şahin müəllim. Qüdrət Həsənquliyev. Buyurun, Qüdrət müəllim.

**Q.Həsənquliyev.** Hörmətli Sədr, hörmətli həmkarlar! Mən çıxış etmək istəmirdim, amma Ramil müəllim burada dedi ki, birdən internet kəsilsə, biz necə onlayn qaydada səsverməni həyata keçirəcəyik. Bununla bağlı qeyd edim ki, bəzən burada da elə hadisə baş verə bilər ki, iclası davam etdirə bilmərik. Yəni fövqəladə hallar, hər şey ola bilər. O baxımdan, ona görə ciddi narahat olmaq lazım deyil. Bir də təklif edirəm ki, martın 26-da Avropa Parlamenti onlayn qaydasında...

**Sədrlik edən.** Qüdrət müəllim, üzr istəyirəm, mikrofonu bir az qaldırın, çünki burada pis eşidilir.

**Q.Həsənquliyev.** Hörmətli Sahibə xanım, yəni martın 26-da Avropa Parlamenti kiçik və orta sahibkarlar üçün 37 milyard avroluq yardım paketi ayırdı. Həmin iclasda sədr tək oturmuşdu, zalda 3–4 nəfər əyləşmişdi. 688 nəfər onlayn qaydada səsvermə həyata keçirirdilər. Hesab edirəm ki, bizim səfirlik, yaxud bizim mütəxəssislər əlaqə saxlaya bilər və biz həmin təcrübəni öyrənə bilərik. Artıq bununla bağlı beynəlxalq təcrübə də var.

Bir də sonda onu qeyd etmək istəyirəm ki, mən əvvəllər bu məsələni mətbuatda çox qaldırmışam, Azərbaycanda karantin rejimi elan olunub, amma karantin rejimi hüquqi baxımdan anlayışı verilməmiş bir termindir. Bu, özündə nəyi ehtiva edir, heç kəs bilmir. İcra hakimiyyəti orqanı beynəlxalq təcrübəyə istinad edərək Azərbaycanda vətəndaşların hüquq və azadlıqlarını ciddi şəkildə məhdudlaşdırıb. Mən bilirəm ki, bu xalqımızın xeyrinədir. Son zərurət vəziyyətində bu addım atılıb. Amma biz mütləq karantin rejimi haqqında qanun qəbul etməliyik. Fövqəladə vəziyyət şəraitində biz Prezidentin fərmanını parlamentdə təsdiq edirik. Ali qanunvericilik orqanı bunu ona görə edir ki, vətəndaşların hüquq və azadlıqları məhdudlaşdırılır. Karantin rejimində də eyni qaydada məhdudlaşdırılır, amma parlament karantin rejimini təsdiq etməyib. Ona görə ki, bununla bağlı qanunvericilik bazamız yoxdur.

Burada söhbət hüquq və azadlıqların ciddi şəkildə məhdudlaşdırılmasından gedir. Biz görürük ki, yüzlərlə gənc tələbəmizi, – bəlkə də gələcəkdə onlar spiker, prezident, vitse-prezident olacaqlar, – böyründə, yüz metrliyində hotel olduğu halda aparırlar, yığırlar yeraltı bir yerə.

Yəni bu halda biz vətəndaşlarımızın hüquqlarını qorumalıyıq, parlament də müəyyən məsuliyyətin altına girməlidir. Ona görə də mən hesab edirəm, biz karantin rejimi haqqında qanun qəbul etməliyik və orada bu rejimin parlament tərəfindən təsdiq olunması öz əksini tapmalıdır. Yəni biz icra hakimiyyəti orqanlarına o qədər də geniş səlahiyyət verə bilmərik ki, istənilən qərarı qəbul etsinlər. Sabah, indi misal üçün, deyirəm, restoranları, hər yeri bağlayıblar, elə absurd qərar da qəbul edə bilərlər. Mən ümid etmirəm ki, elə bir qərar ola bilər. Amma nəzəri baxımdan ola bilər. Ona görə də biz o çərçivəni dəqiq müəyyənləşdirməliyik və bizim bu imkanlarımız var. Mən hesab edirəm ki, bu qərar təcili qaydada qəbul olunmalıdır. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Qüdrət müəllim, Siz onlayn iclasların keçirilməsi ilə bağlı dediniz, nəzərinizə çatdırım ki, biz dünən komitə sədrləri ilə belə bir test keçirib, əlimizdə olan imkanlardan istifadə edərək onlayn rejimdə iclaslarımızı apardıq. Siz dediyiniz o beynəlxalq təcrübə bu gün öyrənilir və müxtəlif tapşırıqlar da var. Biz bu istiqamətdə işləyirik. Təbii, başa düşürsünüz ki, çox da asan bir iş deyil. Ancaq, çalışacağıq ki, bu istiqamətdə işlərimizi daha da sürətlə aparaq.

Rəşad Mahmudov. Rəşad müəllim, çıxışa yazılmısınız?

**Yerdən.** (*Eşidilmir.*)

**Sədrlik edən.** Buyurun.

**R.Mahmudov.** Hörmətli Sədr, mən, əslində, çıxışdan çox düşünürəm ki, həssas zamanda, xüsusilə insanları tibbi tərəfdən maraqlandıran bəzi sözlər, bəzi düşüncələr oldu. Əgər vaxt varsa, onları cavablamağı özümə borc bilirəm. İlk olaraq “Tibbi sığorta haqqında” Qanunda dəyişikliklə əlaqədar hörmətli həmkarımız Razi Nurulla-

yevin əleyhinə vermiş olduğu səsə görə. Yəqin ki, arayışda bəzi məqamlar gözdən qaçıb. Çünki bu, qətiyyən icbari tibbi sığortanın gecikdirilməsi, yaxud təxirə salınması ilə əlaqədar qərarlar deyil.

Maddələrə diqqət etdiyimiz zaman burada çox maddələr vətəndaşın xeyrinə olan dəyişikliklərdir, çünki aprelin 1-dən, bilirsiniz ki, müştərək maliyyələşdirmədə insanların əmək haqqından 2 faiz tutulacaqdı. Bu, yanvarın 1-nə qədər uzadılır. Eləcə də real vəziyyətdə 2020-ci ildə icbari tibbi sığortanın bütün ölkə üzrə tətbiqi ilə əlaqədar işlərin nə qədər mürəkkəb olduğunu nəzərə alsaq, bu gün bu işdə fəaliyyət göstərən insanların əməyinə haqsızlıq etmiş olarıq. Çünki, həqiqətən, bu gün koronavirusla əlaqədar mübarizə, sadəcə, ölkəmiz üçün problem deyil, dünyanın aciz qaldığı bir hadisədir. Onun üçün düşünürəm ki, arayışa diqqətlə baxdığımız zaman orada işin gedişi ilə əlaqədar icbari tibbi sığortanın gələcəkdə ölkədə əlçatanlığına və yüksək səviyyədə tətbiqinə zərər verəcək hər hansı bir maddə qətiyyən yoxdur.

İkinci, mən diqqətinizi tibbi maskalarla əlaqədar bir məsələyə çəkmək istəyirəm. Dünyanın heç bir ölkəsində...

**Sədrlik edən.** Rəşad müəllim, çox-çox üzr istəyirəm, iş burasındadır ki, biz indi ayrı bir qanunun müzakirəsini qurtardıq. Ona görə, mən düşünürəm ki, Sizin hansısa bir fikriniz varsa, Razi müəllimə bir yerdə açıqlama verə bilərsiniz. Əli müəllim, xahiş edirəm, suallar səsləndi, Siz həmin suallara cavablarınızı verəsiniz.

**Ə.Hüseynli.** Çox sağ olun, hörmətli Sahibə xanım. Sahibə xanım, baxmayaraq ki, bu sualların əksəriyyəti birinci oxunuşun predmeti deyildi, amma hesab edirəm, indi onları cavablandırmaqla biz təqdim etdiyimiz qanun layihələrinin növbəti mərhələlərdə həm də sürətlə qəbul

olunmasını təmin edərik. Mən bizim qanunun zərurətini əsaslandırdım, məqsədimizi söylədim, bununla yanaşı, bir sıra suallar meydana çıxdı. Komitə üzvlərinə təşəkkür edirəm ki, müdaxilə etdilər və bir neçə arayış verdilər. Çünki epidemiologiya və pandemiya anlayışlarını biz keçən iclasda artıq həll etmişdik və göstərmişdik ki, bizim qanunvericilikdə məhz epidemiologiya ifadəsidir. Mən bu fikirlə tam razıyam ki, fövqəladə vəziyyətlə bağlı Konstitusiyanın 112-ci maddəsi və fövqəladə vəziyyət haqqında 2004-cü ildə qəbul etdiyimiz qanun var. Bu məsələlər məhz həmin qanunda öz əksini tapmış olur. Bizim təqdim etdiyimiz layihə isə sırf epidemiya əleyhinə və sanitariya-gigiyenik, karantin rejimi ilə bağlı olan məsələlər idi.

Meydana çıxan bir sıra məsələlər bizim layihədə təqdim etdiyimiz ifadələrlə bağlı idi. Hörmətli Ziyafət müəllim "gücləndirilmiş imza" ifadəsini, Məlahət xanım isə "real vaxt rejimi" ifadəsini söylədi.

Hörmətli həmkarlar, diqqətinizə çatdırmaq istəyirəm ki, "Elektron imza və elektron sənəd haqqında" Qanunun 1.1.5-ci maddəsində bu anlayış verilib. "Gücləndirilmiş elektron imza-imza sahibinin nəzarəti altında olan elektron imza vasitələri ilə yaradılan və yalnız imza sahibinə məxsus olmaqla onu identifikasiya edən, əlaqəli olduğu məlumat bildirişinin bütövlüyünü, dəyişməzliyini, təhrif olunmadığını və saxtalaşdırılmadığını müəyyən etməyə imkan verən elektron imzadır". Yəni gücləndirilmiş imza anlayışı bizim qanunvericilikdə öz əksini tapmışdır. Real vaxt rejimi qanun layihələrinə və digər məsələlərə dərhal münasibət bildirməyə imkan verən iş rejimidir. Bu ifadə də bizim qanunvericilikdə öz əksini tapmışdır.

Hörmətli Elman müəllim Nəsirov təqdim olunmuş

layihədə “Milli Məclisin Sədri sərəncam qəbul edir” ifadəsini söylədi. Hörmətli Elman müəllim, hesab edirəm, təcrübəli millət vəkili kimi, gərək hamımız Nizamnamə ilə bir daha tanış olaq. Nizamnamənin 31-ci maddəsində Sədrin səlahiyyətləri qeyd olunub. “Milli Məclisin Sədri öz səlahiyyətlərinin həyata keçirilməsi ilə əlaqədar sərəncamlar qəbul edir”.

Məhz bu ifadə Nizamnamədə var. Biz də təqdim etdiyimiz qanun layihəsinə məhz həmin ifadəni, sadəcə, köçürmüşük.

Digər məsələlərlə bağlı izahatlar verilmişdir. Hesab edirəm ki, qanun layihələrinin birinci oxunuşu ilə bağlı hər hansı bir problem yoxdur. Biz meydana çıxan o iki problemin həllinə yönəlmişik. Əgər bu sənədə səs vermiş olarıqsa, hesab edirəm ki, bu problemlərin həlli istiqamətində ilk addım atmış olacağıq. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim. Hörmətli həmkarlar, indi isə xahiş edirəm, “Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə birinci oxunuşda münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.24 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, çox sağ olun.

İndi isə Azərbaycan Respublikası Milli Məclisinin Da-

xili Nizamnaməsində dəyişiklik edilməsi haqqında qanun layihəsinə birinci oxunuşda münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.25 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, çox sağ olun.

Növbəti səsvermə. Xahiş edirəm, “Azərbaycan Respublikası Milli Məclisinin komitələri haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə birinci oxunuşda münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.26 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

**Yerdən.** (*Eşidilmir.*)

**Sədrlik edən.** Bəli, Qüdrət müəllim.

**Q.Həsənquliyev.** Sahibə xanım, bizim praktikada olub, başqa ciddi təkliflər olmayanda bəzən biz qanunları 2-ci, 3-cü oxunuşda eyni vaxtda səsə qoymuşuq. Sabah Azərbaycanda epidemiya alovlana bilər və biz burada toplaşa da bilmərik. Ona görə də bəlkə bu qanunun vacibliyini

nəzərə alaraq, biz o şəraitdə, tutaq ki, evdən iştirak edə, parlamentin iclaslarını çağıra bilək. Ona görə, təklif edirəm, əgər deputat həmkarlarım etiraz eləmirsə, ikinci və üçüncü oxunuşda da səsverməni bu gün keçirək. Sağ olun.

**Sədrlik edən.** Qüdrət müəllim, çox sağ olun. Əslində, biz bunu nəzərdə tutmamışdıq. Sizə açığını deyim, bunu nəzərə alaraq, hələ bu gün biz bunu edə bilməyəcəyik.

Hörmətli həmkarlar, növbəti məsələmiz 6-cı məsələdir. Gündəliyin 6-cı məsələsi Azərbaycan Respublikasının Milli Məclisi yanında Toponimiya komissiyasının tərkibi haqqındadır.

Toponimiya komissiyası Azərbaycan Respublikasının inzibati ərazi bölgüsündə ərazi vahidlərinə və yaşayış məntəqələrinə ad verilməsi, onların adlarının dəyişdirilməsi və dəqiqləşdirilməsi məsələlərinə baxmaq və rəy vermək üçün yaradılır.

Komissiya tarix, dilçilik, coğrafiya, geodeziya, etnoqrafiya və digər əlaqəli sahələr üzrə alim və mütəxəssislərdən ibarət tərkibdə təşkil olunur.

Qərar layihəsi sizə paylanıb. Çıxış etmək, fikir söyləmək istəyən varmı? Yoxdur. Çox sağ olun.

**Yerdən.** (*Eşidilmir.*)

**Sədrlik edən.** Kimsə var? Musa Qasımlı.

**M.Qasımlı.** Çox hörmətli Sədr, hörmətli millət vəkilləri. Bu, çox ciddi bir məsələdir və hesab edirəm ki, bu komissiyanın üzərinə böyük vəzifələr düşür. Təbiidir ki, səs verəcəyik. Amma Sahibə xanım, Azərbaycan dövlət müstəqilliyini bərpa edəndən bəri bu salonda bir çox tarixi adlar, toponimlər yersiz yerə dəyişdirilib. Mən konkret misallar çəkmək istəmirəm. 80 il əvvəlin nümunəsini gətirmək istəyirəm. Azərbaycan Ali Sovetinin iclasında dil

məsələləri müzakirə olunanda deyirdilər ki, “maliyyə” sözü, “mədəniyyət” sözü bizim deyil. Bu, ərəb mənşəlidir, gəlin, bunları dəyişək. O zaman görkəmli xadimlərimiz Səməd Vurğun, Rəsul Rza çıxış etdilər. Parlamentarizm tarixində biz bunu yazmışıq. Neylədilər, 1991-ci ildən sonra bəziləri buna səs verdilər. Azərbaycanın tarixi adlarını dəyişdirdilər. Həmin adamların bəziləri bu salonda oturub – ona səs verənlər. Mən hesab edirəm ki, toponimlərimizi qorumalıyıq. Bu, bizim mədəniyyətimizdir, milli keçmişimizdir, tariximizdir və mənəviyyatımızdır. Bu məsələdə ölkədə bir ciddi qayda-qanun yaradılmalıdır və hesab edirəm ki, ona zamanında səs verənlər öz vicdanları qarşısında da bir hesabat verməlidirlər. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Siyavuş Novruzov, buyurun.

**S.Novruzov.** Hörmətli Sədr, mənimki, əslində, sualdır. Bu toponimiya ilə əlaqədar məsələlər bizim komitədə də müzakirə olunacaqdır. Yəni Milli Məclisə biz təqdim edəcəyik. Komitənin sədrinin adı orada yoxdur. Ədəbiyyatçı var, tarixçi var, digəri var və sair. Bu, axırda, son nəticədə gəlib bizə çıxacaq da...

**Sədrlik edən.** Səfa müəllim, buyurun, məsələyə münasibət bildirin.

**S.Mirzəyev,** *Milli Məclis Aparatının rəhbəri.*

Təşəkkür edirəm, xanım Sədr. Əlbəttə ki, Toponimiya komissiyası Milli Məclisin komitəsi deyil. Orada toplaşan insanlar elmi, praktik, folklor biliklərindən istifadə edərək, öz rəyini bildirir ki, bu adqoyma, ad dəyişmə düzgündür, yaxud düzgün deyil. Bu baxımdan, son söz Milli Məclisin komitələrində və Milli Məclisin plenar iclaslarındadır. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Səfa müəllim, təşəkkür edirəm. 2 nəfər çıxışa yazılıb. Anar İsgəndərov, buyurun.

**A.İsgəndərov.** Çox hörmətli sədarət, dəyərli millət vəkilləri, mətbuat nümayəndələri. Fürsətdən istifadə edib, sizin hamınızı salamlayıram. Əslində, mən bu gün ilk dəfə yazılanda 31 mart – azərbaycanlıların soyqırımı günü ilə bağlı fikir bölüşmək istəyirdim. Amma buna imkan olmadı.

Toponimiya komissiyası ilə bağlı. Azərbaycan xalqı tarix boyu nələrə məruz qalıb. Yəni nə zaman ki, Azərbaycan torpaqları işğal olunub, işğal tək var-dövlətinin aparılması ilə bağlı olmayıb. Onun yer, dağ, çay adları da dəyişdirilib. Yəni 1813–1828-ci illərdə Azərbaycan Rusiya tərəfindən işğal ediləndə, demək olar ki, kifayət qədər adlar dəyişdirildi. 1920-ci ilin aprel işğalı ondan da dəhşətli oldu. 1948–1953-cü illərdə Qərbi Azərbaycanla bağlı həyata keçirilən tədbirlər. Yəni bununla mən nəyi demək istəyirəm? Bu gün bizə düşmən olan və bizimlə müharibədə olan ermənilər Azərbaycan toponimlərini dəyişməklə yanaşı, onu bütün dünyaya da yayırlar.

Mən sizə çox maraqlı bir şey demək istəyirəm. 1918–1920-ci illərdə Fövqəladə Təhqiqat Komissiyasının 36 cilddən ibarət sənədləri hazırlanıb. Yəni türk insanlarının soyqırımı ilə bağlı. Siz inanın ki, o sənədləri hazırlayanların əksəriyyəti qeyri-azərbaycanlılardı. Ancaq o toponimi necə var elə saxlayıblar. Amma çox təəssüflər olsun ki, biz bu gün həmin sənədləri dünya meydanına çıxara bilmirik. Çünki bizə düşmən olan ermənilər Qərbi Azərbaycanda olan bütün adları dəyişiblər.

Mənim təklifim nədən ibarətdir? Mən təklif edirəm ki, bu komissiya, doğrudan da, mötəbər üzvlərdən ibarət olmalıdır. Sahibə xanım, ilk əvvəl orada tarixçi yoxdur, bu

bir. İkinci də, bizim kafedra 30...

**Sədrlik edən.** Anar müəllim, vaxtınız qurtardı. Biz bu gün komissiyanın tərkibi haqqında danışırıq. Xahiş edirəm ki, həmin bu məsələyə münasibət bildirəsiniz. Fəzail müəllim, Siz çıxış eləmək istəyirsiniz? Xahiş edirəm, məsələ ilə bağlı.

**F.İbrahimli.** Təşəkkür edirəm. Mən uzun müddət bu komissiyanın üzvlərindən biri olmuşam. İlk növbədə bu komissiyanın qarşısında duran vəzifə anlanılmalıdır. Komissiyanın hansı səlahiyyətləri var və nələri edə bilər. Hətta müəyyən dövr o komissiyada gedən proseslərdə ciddi mübahisələr, fikir ayrılığı və sair olub. Zahirən elə görünə bilər ki, bu komissiya ad qoyur, özündən nəyi isə dəyişdirə bilir. Yox.

Bu komissiyanın qarşısında duran vəzifə nədən ibarətdir? Tutaq ki, rayonda hər hansı bir kənd adı, yer adı dəyişir. İlk növbədə yerli camaatın birgə iclasının protokolundan çıxarış rayon icra hakimiyyətinə göndərilir. Rayon icra hakimiyyəti bunu göndərir aidiyyəti quruma, aparata. Bu aparatın müvafiq şöbəsi bu məsələyə baxır. Əgər bunu məqbul hesab edirsə, göndərir Milli Məclisə. Milli Məclisin Toponimiya komissiyası çağırılır. Sənin qoyduğun tarixi ad saxtadır, yoxsa, düzdür. Reallığı ödəyir, yoxsa, ödəmir. Orada onun ixtiyarı yoxdur, hansısa bir adı özündən dəyişdirsin. Sonda bir təkliflə çıxış edə bilər. İlk mənbə, haradan gəlib, mənbə haradandır? Ona görə də bizim bu gün qarşımızda duran vəzifə ondan ibarətdir ki, bu komissiyanın tərkibini biz bəyənirik – hə, bəyənmirik – yox. Məqsəd bundan ibarətdir. Təşəkkür edirəm.

**Sədrlik edən.** Təklif var, səsə qoyulsun. Buyurun, məsələni səsə qoyuruq.

| **Səsvermənin nəticələri** | (saat 12.36 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 90 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Hörmətli deputatlar, növbəti 5 məsələ hökumətlərarası sazişlər ilə bağlıdır. Gündəliyin 7-ci məsələsi "Quru limanlar haqqında" Hökumətlərarası Sazişə qoşulmaq barədə qanun layihəsidir. Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili məruzə edir. Tahir müəllim, buyurun.

**T.Mirkişili,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli Sədr, hörmətli həmkarlar! BMT-nin Asiya və Sakit Okean regionu üzrə iqtisadi və sosial komissiyasının Asiyada nəqliyyatın inkişafı üzrə Banqkok bəyannaməsinin icrasına dair qəbul etdiyi qətnaməyə əsasən üzv ölkələr üçün 2013-cü il noyabrın 7-də "Quru limanlar haqqında" Hökumətlərarası Saziş hazırlanmış və imzalanmaq üçün açıq elan edilmişdir. Qeyd edim ki, Saziş Asiyada və qonşu regionlarda beynəlxalq əlaqələndirilmiş nəqliyyat və loqistika sistemlərinin inkişaf etdirilməsini təşviq edir. Sazişə 27 ölkə qoşulub. Onlardan biri Azərbaycandır. Azərbaycan bu Sazişdə özünün hazırda mövcud olan 11 quru limanını və 10 potensial limanını göstərmişdir. Sazişin əsas rəhbər prinsipləri quru limanların inkişafı üzrə fasiləsiz fəaliyyətinə müsbət şərait yaradan funksional, inzibati və

normativ hüquqi mexanizmlərin yaradılmasıdır.

Qeyd edim ki, Azərbaycan bu Sazişə bir bəyannamə, bir də xüsusi qeyd-şərtlə qoşulub. Çünki Sazişin 27 üzvündən biri Ermənistandır. Məhz bəyanatda Sazişin müddəalarının Sazişin digər üzvü olan Ermənistana tətbiq edilməyəcəyi qeyd olunur. Amma, eyni zamanda, Azərbaycanın işğal olunmuş ərazilərini əks etdirən xəritə də bu Sazişə əlavə olunmuşdur. Ona görə, düşünürəm ki, hörmətli həmkarlar, sizə təqdim olunan variantda Sazişin digər müddəaları da var və Sazişə səs verməyinizi sizdən xahiş edirəm. Minnətdaram, çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, bu layihəyə Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsində də baxılmışdır. Səməd müəllim, xahiş edirəm, münasibət bildirəsiniz.

**S.Seyidov,** *Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri.*

Çox sağ olun, Sahibə xanım. Əslində, Tahir müəllim bu Sazişə geniş və ətraflı münasibət bildirdi. Biz komitəmizdə bunu geniş şəkildə müzakirə etdik və bütün komitə üzvləri bunun, təbii, lehinədir. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Hörmətli deputatlar, xahiş edirəm, "Quru limanlar haqqında" Hökumətlərarası Sazişə qoşulmaq barədə qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.39 dəq.) |
|---|---:|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, çox sağ olun.

Növbəti məsələ "Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında Azərbaycan Respublikasının və Türkmənistanın rabitə operatorları tərəfindən Azərbaycan–Türkmənistan marşrutu üzrə Xəzər dənizinin dibi ilə fiber-optik rabitə xətlərinin birgə tikintisi, sahibliyi və istifadəsində müştərək fəaliyyətin təşkili haqqında" Sazişin təsdiq edilməsidir. Məsələ barəsində Tahir Mirkişili məruzə edir. Tahir müəllim, buyurun.

**T.Mirkişili.** Hörmətli Sədr, hörmətli həmkarlar, Saziş 2019-ci il noyabrın 28-də Türkmənistanın Aşqabad şəhərində Azərbaycan Hökuməti ilə Türkmənistan Hökuməti arasında imzalanıb. Sazişin bağlanmasında əsas məqsəd, Sizin də qeyd etdiyiniz kimi, Xəzər dənizinin dibi ilə fiber-optik rabitə xəttinin hər iki ölkənin rabitə operatorları tərəfindən birgə tikintisi, sahibliyi və istifadəsində müştərək fəaliyyətin təşkilidir. Qeyd edim ki, layihənin operatorları Azərbaycan tərəfindən Azərtelekom Məhdud Məsuliyyətli Cəmiyyəti, Türkmənistan tərəfindən isə Türkməntelekom elektron rabitə şirkətidir.

Sazişə görə, hökumətlər bu operatorlara layihəni həyata keçirməkdə dəstək verəcəklər. Layihə hər iki operatorun yaratdığı birgə müəssisə tərəfindən icra olunacaqdır. Qeyd edim ki, bu Saziş həm də iki ölkənin rabitə şəbəkələrinin əməkdaşlığına, beynəlxalq telekommunikasiya şəbəkələrinin səmərəliyinin artmasına imkan yaradacaqdır.

Hörmətli həmkarlar, kabel xətti Azərbaycanın Siyəzən, Türkmənistanın isə Türkmənbaşı coğrafi məkanları arasında çəkiləcək. Xəttin məlumat ötürmə gücü saniyədə 4 terobitdir. Layihə 2021-ci ildə başlanacaq, 2023-cü ildə bitəcək. Planlaşdırmaya görə, layihə Avropadan internet trafikinin Azərbaycandan keçərək Türkmənistana, daha

sonra Özbəkistana, Əfqanistana, Pakistana və Hindistana ötürülməsinə imkan verəcək. Layihə kifayət qədər vacibdir. Ona görə layihəyə səs verməyinizi sizdən xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Səməd müəllim, bu layihəyə Sizdə də baxılıb. Buyurun.

**S.Seyidov.** Çox sağ olun, Sahibə xanim. Tahir müəllimə minnətdaram, doğrudan da, bu məsələni ətraflı qeyd etdi. Sadəcə, bir cümlə ilə əlavə mövcuddur. O da ondan ibarətdir ki, bu layihə təkcə texniki xarakter daşımır, texniki nöqteyi-nəzərdən həddindən artıq mühüm bir məsələdir, ancaq bu, Azərbaycan Respublikası Hökumətinin, Azərbaycan Respublikası Prezidentinin Xəzər siyasəti ilə bağlı Azərbaycan–Türkmənistan əlaqələrinin son zamanlar nə dərəcədə yüksək səviyyədə inkişafına dəlalət edən bir Saziş kimi də qiymətləndirilməlidir. İndiki zamanda özünüz görürsünüz ki, internet nə dərəcədə vacib bir məsələyə çevrilib və Avropanı, Asiyanı məhz Azərbaycanın üzərindən birləşdirmək məsələsini özündə ehtiva edən bu Saziş həddindən artıq əhəmiyyətlidir. Ona görə həmkarlardan bunun lehinə səs vermələrini xahiş edirəm. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, xahiş edirəm, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.43 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |

Nəticə: Qəbul edildi

Qəbul edildi, çox sağ olun.

Gündəliyin 9-cu məsələsi Azərbaycan və Bolqarıstan hökumətləri arasında cinayətkarlıqla mübarizə sahəsində əməkdaşlıq haqqında Sazişə Əlavə Protokolun təsdiq edilməsidir. Məruzə etmək üçün Əli Hüseynliyə söz verilir. Əli müəllim, buyurun.

**Ə.Hüseynli.** Çox sağ olun, hörmətli Sahibə xanım. Bilirsiniz ki, Azərbaycan ilə Bolqarıstan arasında çox sıx dostluq münasibətləri mövcuddur. Bizim aramızda həm də cinayətkarlığa qarşı mübarizə sahəsində əməkdaşlıq Sazişi də mövcuddur və bu Sazişə Əlavə Protokolun təsdiq olunması bir daha ölkələrimiz arasında, o cümlədən cinayətkarlığa qarşı mübarizə sahəsində əməkdaşlığın bir elementidir. Həmkarlarımdan bu Sazişə səs vermələrini xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Səməd müəllim, bu məsələyə Sizdə də baxılıb. Buyurun.

**S.Seyidov.** Bəli, Sahibə xanım, minnətdaram. Biz bu Sazişə yekdilliklə səs vermişik. Ona görə ki, Əli müəllimin qeyd etdiyi kimi, Azərbaycan–Bolqarıstan münasibətləri xüsusi əhəmiyyət kəsb edir. Nəzərə alsaq ki, Bolqarıstan Avropa Birliyinə daxil olan ölkələrdən biridir, bütün sahələrdə əməkdaşlıq, strateji əməkdaşlıq, o cümlədən cinayətkarlığa qarşı mübarizə sahəsində əməkdaşlıq bizim üçün çox əhəmiyyətlidir. Xahiş edirəm, müsbət səs verəsiniz.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.44 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, çox sağ olun.

Gündəliyin növbəti, 10-cu məsələsi "Azərbaycan Respublikası Hökuməti ilə Bolqarıstan Respublikası Hökuməti arasında pensiya təminatı haqqında" Sazişin təsdiq edilməsi barədə qanun layihəsidir. Məsələ barəsində Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev məruzə edir. Musa müəllim, buyurun.

**M.Quliyev,** *Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli Sahibə xanım, hörmətli millət vəkilləri! Müzakirənizə təqdim olunan qanun layihəsi cənab Prezidentin qanunvericilik təşəbbüsü ilə Milli Məclisə daxil olmuşdur. Məndən öncə qanun layihələrini təqdim edən deputat həmkarlarımın da söylədiyi kimi, Azərbaycan ilə Bolqarıstan arasında əlaqələr dostluq əlaqələridir, sıx əlaqələrdir və strateji səviyyəyə çatmış əlaqələrdir. Bu mənada ölkələrimiz arasında pensiya təminatı sahəsində də münasibətlərin tənzimlənməsi üçün hüquqi bazanın yaradılması çox aktualdır.

Sizin müzakirənizə təqdim olunan qanun layihəsi Azərbaycan ilə Bolqarıstan arasında pensiya təminatı sahəsində əlaqələrin tənzimlənməsi, hər iki ölkə vətəndaşlarının pensiya və sosial sığorta hüquqlarının həyata keçirilməsinin təmin olunması üçün geniş qanunvericilik bazasının yaradılmasına xidmət edir. Saziş 5 bölmədən və 27 maddədən ibarətdir. Sazişi Azərbaycan hökuməti tərəfindən Azərbaycan Respublikasının əmək və əhalinin sosial

müdafiəsi naziri və Bolqarıstan Hökuməti tərəfindən Bolqarıstanın əmək və sosial siyasət naziri imzalamışlar. Bu qanun layihəsi Milli Məclisin Əmək və sosial siyasət komitəsinin 2020-ci il 16 mart tarixli iclasında müzakirə olunmuş və plenar iclasa tövsiyə edilmişdir. Deputat həmkarlarımdan qanun layihəsini dəstəkləməyi xahiş edirəm.

**Sədrlik edən.** Sağ olun, Musa müəllim. Səməd müəllim, buyurun, yenə söz Sizindir.

**S.Seyidov.** Çox sağ olun, Sahibə xanım. Mən Musa müəllimə minnətdarlığımı bildirirəm, bu Sazişlə bağlı geniş və ətraflı məlumat verdi. Burada vacib bir məqam ondan ibarətdir ki, faktiki bu Saziş sosialyönümlü sazişdir. Bu birincisi. Yəni vətəndaşların hüquqlarına xidmət edən bir sazişdir.

İkincisi, bu Sazişdə ən vacib məsələlərdən biri ondan ibarətdir ki, biz faktiki Avropa Birliyinə daxil olan ölkənin standartlarını Azərbaycanda tətbiq edirik. Bu, ən vacib məsələlərdən biridir. Həmişə demişik ki, biz yüksək standartları Azərbaycana gətirmək istiqamətində fəaliyyət göstəririk. Bizim ikitərəfli münasibətlərimiz həddindən artıq vacibdir. Bu nöqteyi-nəzərdən sosial, yəni birbaşa vətəndaşa yönəlmiş məsələlər yüksək səviyyəli standartlarla, bu Saziş vasitəsi ilə şamil olunur. Ona görə, təbii, bu alqışlanmalıdır. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.48 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |

İştirak edir 
Nəticə: Qəbul edildi

Qəbul edildi, çox sağ olun.

Gündəliyin 11-ci məsələsi “Azərbaycan Respublikası Hökuməti ilə Ukrayna Nazirlər Kabineti arasında diplomatik nümayəndəlik və konsulluq müəssisələri əməkdaşlarının ailə üzvlərinin ödənişli əmək fəaliyyəti növlərini həyata keçirmələri haqqında” Sazişin təsdiq edilməsi barədədir. Məsələ barəsində məruzə etmək üçün Səməd Seyidova söz verilir. Səməd müəllim, buyurun.

**S.Seyidov.** Çox sağ olun, Sahibə xanım. Fürsətdən istifadə edərək, mən bir də Azərbaycan Respublikasının xaricdəki bütün səfirliklərinə, konsulluqlarına, nümayəndəliklərinə öz dərin minnətdarlığımı bildirmək istəyirəm. Ona görə ki, bu çətin dövrdə, xüsusilə Avropada, siz təsəvvür edin, Azərbaycan vətəndaşları ilə, Azərbaycanın hansısa məsələləri ilə bağlı olaraq onlar fədakar işlər görürlər.

İspaniyada, İtaliyada, Fransada, – bir neçə saat bundan əvvəl Strasburqla əlaqə saxlamışam, orada da vəziyyət həddindən artıq gərgindir, bütün müəssisələr bağlıdır, – bizim nümayəndəliklər, səfirliklər, konsulluqlar hamısı işləyir. Özü də onlar tək işləmirlər, ailələri ilə bir yerdə işləyirlər. Ona görə bu Saziş də, Sahibə xanım, sosialyönümlü bir sazişdir. Bu, bizim diplomatlarımıza, konsullarımıza, orada işləyən diplomatların, nümayəndələrin ailə üzvlərinə şamil olunur və imkan yaradır ki, onlar orada, həmin ölkədə fəaliyyət göstərsinlər. Bu, həddindən artıq əhəmiyyətli bir məsələdir. Bu gün bunu Ukrayna ilə bağlayırıq, ancaq hesab edirəm ki, gələcəkdə bu təcrübəni bütün başqa ölkələrə də şamil etmək lazımdır. Ona görə

həmkarlarımı bu Sazişi dəstəkləməyə çağırıram və hesab edirəm ki, onlar bunu edəcəklər. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Təşəkkür edirəm. Rauf Əliyev, buyurun.

**R.Əliyev.** Təşəkkür edirəm. Hörmətli Sədr, hörmətli millət vəkilləri. Hörmətli Səməd müəllim, həmkarım bu məsələ ilə əlaqədar ətraflı danışdı. Amma mən bir təklif vermək istəyirəm. Hər zaman xaricdə olanda həm bizim diplomatlarla, həm də onların nümayəndələri ilə görüşlərdə onlar xahiş edirlər ki, biz burada Milli Məclis olaraq onlara təkan verək. Məsələ ondadır ki, hər bir ölkədə bu Sazişə qol çəkilməyib. Elə ölkələr var ki, qol çəkilib. Bu gün də Ukrayna hökuməti ilə əlaqələr kimi. Amma elə ölkələr var ki, hələ də qol çəkilməyib. Ona görə də təklifim ondan ibarətdir ki, bu gün, hörmətli həmkarlarım, parlament dostluq qruplarından istifadə edərək o hökumətlərlə danışıqlar aparaq və bu məsələdə öz köməyimizi göstərək. Diqqətinizə görə minnətdaram.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.52 dəq.) |
|---|---:|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, çox sağ olun.

Növbəti məsələ “Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə min-

məsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədədir. Məsələ barəsində Əli müəllim Hüseynli məruzə edir. Əli müəllim, buyurun.

**Ə.Hüseynli.** Çox sağ olun. Hörmətli Sahibə xanım, hörmətli həmkarlar. Qanun layihəsinin təqdim olunmasında əsas məqsəd müfəssəl planların, ərazinin planlaşdırılması sənədlərinin və baş planların, yəni şəhərsalma prosesində vacib olan bu sənədlərin tətbiqi, onların hazırlanması ilə bağlı Məcəllənin qüvvəyə minməsi müddətinin 1 il də uzadılmasıdır.

Hörmətli həmkarlar, qısaca olaraq demək istəyirəm ki, Şəhərsalma və Tikinti Məcəlləsi məhz bizim təşəbbüsümüzlə artıq uzun illərdir, qüvvədədir. Biz vacib olan bu müddəanın hər il təxirə salınması məcburiyyətində olmuşuq. Açıq söyləməliyəm ki, ancaq son illər şəhərsalma və tikinti sahəsində çox mütərəqqi işlər və islahatlar həyata keçirilməyə başlanmışdır. Təbii ki, indi qarşıda duran vəzifələr həm də müfəssəl planların, baş planların hazırlanmasıdır. Yəqin sizlər də müşahidə etmisiniz, möhtərəm cənab Prezidentin sonuncu çıxışlarının birində bu məsələlərlə bağlı xüsusi tapşırıqlar və tövsiyələr verilib. Əminik ki, indi uzadılacaq 1 il müvafiq icra orqanı tərəfindən səmərəli istifadə olunacaq və Məcəllənin bu maddəsi də 1 ildən sonra real qüvvəyə minəcəkdir.

Bilirəm ki, sizlər də müşahidə etmisiniz, hazırda, ümumiyyətlə, tikinti layihələrinin həyata keçirilməsi ilə bağlı çox ciddi işlər, islahatlar həyata keçirilir. Amma bütövlükdə onu deyə bilərəm ki, bizim bu Məcəllə çox mütərəqqi bir məcəllədir. Zamanında bizim parlament Aparatı ilə birgə bizim komitədə hazırlanmışdır. Qarşıda duran vəzifənin yerinə yetirilməsindən ötrü, bütövlükdə,

əlbəttə ki, müfəssəl proqramlar hazırlanmalıdır. Çox böyük məmnuniyyət hissi ilə qeyd edə bilərik ki, bütün bu tapşırıqlar həm də Azərbaycanın bütün şəhərlərində həyata keçirilir. Biz hazırda Məcəllənin bu müddəasının qüvvəyə minməsini 1 il uzatmış olsaq, əminik ki, müvafiq icra hakimiyyəti orqanı da bu işin öhdəsindən bu zaman çərçivəsində gələ biləcək. Ancaq rəqəm dəyişikliyi olduğuna görə bir oxunuşda səs verə biləcəyik. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim. Qüdrət Həsənquliyev. Buyurun.

**Q.Həsənquliev.** Çox sağ olun, hörmətli Sədr. Mən bu məsələ ilə bağlı istəyirəm, deputat həmkarlarımın diqqətini bir məsələyə yönəldim. Biz adətən parlamentdə çox hallarda bu tipli qanunlar qəbul edirik, qanunlarda hansısa vəzifələrin icrası üçün konkret vaxt müəyyənləşir. Sonradan həmin müddəti artırırıq. Mən hesab edirəm ki, o müddətləri biz burada müəyyənləşdirmirik, yəni bizə daxil olmuş qanunlarda müvafiq icra hakimiyyəti orqanı özü müəyyənləşdirir ki, tutaq 1 il müddətində, 2 il müddətində bu iş görüləcək. Axırıncı dəfə konkret müddət müəyyənləşmişdi ki, bu ilin yanvar ayından artıq icbari tibbi sığortaya tam keçəcək, biz bu müddəti yenə də uzatdıq. Ona görə də bu müddəti artırırıqsa, həmin müvafiq icra hakimiyyəti orqanlarının nümayəndələri bura dəvət olunmalıdırlar və onlar bizə izahat verməlidirlər ki, niyə bu müddəti uzadırıq. Bu, dövlət intizamına da mənfi mənada ciddi təsir edir. Hər kəs fikirləşir ki, mənim qarşıma vəzifə qoyulub, mən öz vəzifələrimi vaxtında yerinə yetirməsəm də belə, sonra görəcəyəm ki, yerinə yetirə bilmirəm, deyəcəyəm, gəlin bunu bir il də uzadaq.

Tikinti Məcəlləsinin 11.1-ci maddəsi, Sahibə xanım, 2013-cü ildən bəri düz 7 ildir, icra olunmur. İndi 1 il də

artırırıq, bunu edirik 8 il. 8 il ərzində müvafiq icra hakimiyyəti orqanı bunu niyə yerinə yetirməyib? Bu tipli məsələlərdə hesab edirəm ki, onlar mütləq parlamentin iclasına dəvət olunmalıdırlar. Cənab Prezident də parlamentin açılış iclasında söylədi ki, Milli Məclis qanunların icrasına nəzarəti gücləndirməlidir. Bizim işimiz də bu olmalıdır. Yoxsa müddət gəldi, biz də onlara heç nə demədən, onları heç bir tənbeh etmədən, tənqid etmədən, sadəcə, heç nə olmamış kimi 7 ili 8 il etdik. Bayaq hörmətli həmkarım Razi bəy söylədi, 1999-cu ildən "İcbari tibbi sığorta haqqında" Qanun qəbul olunub bu günə qədər o tətbiq olunmur. Bu məsələlərlə bağlı, hesab edirəm ki, parlament tələbkarlığı artırmalıdır. Bu halda biz ümumi işə töhfə verə bilərik, Prezidentin apardığı işə dəstək ola bilərik. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Fatma Yıldırım yazılıb. Mən elə bilirəm, Fatma xanım, Siz məsələyə hansısa bir aydınlıq gətirərsiniz. Buyurun.

**F.Yıldırım.** Çox sağ olun. Hörmətli millət vəkilləri, təqdim olunmuş qanun layihəsini tikinti layihələrinin qanunvericiliyin tələblərinə uyğun və təkmil formada hazırlanması baxımından vacib hesab edirəm. "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi və qüvvəyə minməsi, bununla bağlı hüquqi tənzimlənmə haqqında" Qanuna təqdim edilən dəyişikliklərin bu sahədə işlərin səmərəliliyinin artırılmasına xidmət etdiyini hesab edirəm. Bizə təqdim olunan arayışda qeyd olunduğu kimi, Şəhərsalma və Tikinti Məcəlləsinin 11.1-ci maddəsinə əsasən tikinti layihələri şəhərsalma sənədlərinin, o cümlədən müvafiq planın müəyyənləşdirdiyi tələblərə uyğun olmalıdır. Məlumdur ki, ötən il ərzində hörmətli Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə

ölkəmizin hər yerində möhtəşəm quruculuq işləri aparılır. Bütün şəhərlərimizin, bölgələrimizin siması əhəmiyyətli dərəcədə dəyişir. Bu gün ölkəmizin elə bir guşəsi yoxdur ki, orada quruculuq işləri aparılmasın.

Hörmətli millət vəkilləri, son illərdə aparılan dəyişikliklər və islahatlar Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə verilən daha geniş imkanlara tələbat yaradır ki, biz bu məsələyə bir daha baxaq. Bu işlər icra olunarkən maksimum səmərəlilik təmin edilməlidir. Əsas məqsədlərdən biri budur. Son illər tikinti layihələrinin həyata keçirilməsi üçün əsas olan şəhərsalma sənədlərinin, yeni müəssisə planlarının, ərazilərin planlaşdırılması sənədlərinin, baş planlarının hazırlanması istiqamətində ciddi işlər aparılır. Müəyyən olunmuş müddətdə həmin sənədlərin və planların təsdiqi bir sıra şəhər və ərazilər üzrə başa çatmadığına görə təqdim olunmuş dəyişikliklərə əsasən müddətin daha 1 il uzadılmasının, həqiqətən də, məqsədəuyğun olduğunu hesab edirəm. Düşünürəm ki, müddətin uzadılması ümumi işimizin xeyrinə olacaqdır. Mən həmkarlarımı bu dəyişikliyə səs verməyə çağırıram. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.00 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 3 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, çox sağ olun.

Növbəti məsələ “Daşınar əmlakın yüklülüyü haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədədir. Məsələ barəsində Tahir Mirkişili məruzə edir. Tahir müəllim, buyurun.

**T.Mirkişili.** Çox sağ olun, hörmətli Sahibə xanım. Qanun layihəsi Azərbaycan Respublikasının Cinayət və Cinayət–Prosessual məcəllələrinə uyğun hazırlanmışdır. Qanuna görə cəza növü kimi əmlak müsadirəsi ləğv edilmiş, hazırda beynəlxalq təcrübəyə uyğun olaraq, cinayət hüququ tədbiri kimi xüsusi müsadirə institutu tətbiq olunmağa başlanmışdır. “Xüsusi müsadirə” dedikdə, qanunla müəyyən edilmiş əmlakın məhkəmənin qərarı ilə məcburi qaydada və əvəzsiz olaraq dövlət nəfinə alınması nəzərdə tutulur. Xüsusi qeyd edim ki, əmlak müsadirəsindən fərqli olaraq, xüsusi müsadirə daha lokaldır, daha konkretdir, eyni zamanda, daha humanistdir. Nəzərə alsaq ki, cəza növüdür, obyekt, eyni zamanda, daşınar əmlak ola bilər. Ona görə də mövcud layihəyə əsasən “Daşınar əmlakın yüklülüyü haqqında” Qanunda dəyişiklik edilir. Həmkarlarımı qanuna səs verməyə çağırıram. Minnətdaram.

**Sədrlik edən.** Sağ olun, Tahir müəllim. 2 nəfər yazılıb. Vüqar Bayramov, buyurun.

**V.Bayramov.** Çox təşəkkür edirəm. Hörmətli Sədr, hörmətli millət vəkilləri. Bu gün dəyişiklik edilməsi təklif olunan Qanun çox vacib qanundur. Eyni zamanda, Qanunun icrası ilə bağlı bəzi məsələlərə diqqəti cəlb etmək istəyirəm. Çünki təklif edilən dəyişikliklər həmin məsələləri daha da aktuallaşdırır.

Əvvəla, 2018-ci ilin martında Daşınar əmlakın yüklülüyünün reyestri portalı yaradılıb. Amma çox təəssüf ki,

həmin portal hazırda aktiv deyil. Aktiv olmadığı üçün Daşınar əmlakın dövlət portalının reyestri ilə bağlı çətinliklər var. Təbii ki, bu da bizim dəyişiklik etdiyimiz qanunun icrası ilə bağlı çətinliklər yaradır. Eyni zamanda, nəzərə alaq ki, kommersiya bankları tərəfindən 2 formada əmlak girov olaraq cəlb olunur: daşınar və daşınmaz əmlak. Bununla yanaşı, kommersiya banklarının xüsusən regionlarda fəaliyyət göstərən sahibkarlara, real sektora kreditlər verməsi ilə bağlı əmlakın girov olaraq cəlb edilməsində çətinliklər var. Bu da, təbii ki, özünü Mərkəzi Bankın rəsmi statistikasında göstərir. Bu gün Mərkəzi Bankın rəsmi statistikasına görə, bütövlükdə kredit portfeli 15,1 milyard manatdır.

Ümumi kredit portfelinin 12,1 milyard manatı Bakı şəhərinin, paytaxtın payına düşür. Bu, o deməkdir ki, kommersiya bankları tərəfindən təklif olunan hər 100 manat kreditin yalnız 20 manatını regionlarda yaşayan sahibkarlar və vətəndaşlar istifadə edə bilir. Bunun əsas səbəblərindən biri məhz girovun, yəni əmlak formasında girovun kommersiya bankları tərəfindən cəlb edilməsində çətinliklərlə bağlıdır. Həm daşınar əmlakın yüklülüyü məsələsi, həm də daşınmaz əmlakın girov olaraq cəlb edilməsi ilə bağlı çətinliklər var. Nəzərə alsaq ki, regionlarda fəaliyyət göstərən sahibkarlardan paytaxtda əmlakın olması və paytaxtda olan həmin əmlakın girov kimi təqdim edilməsi tələb olunur, bu da regionlarda fəaliyyət göstərən sahibkarların məhz girov təklif edərək kreditlərə çıxış imkanlarını məhdudlaşdırır. Güman edirəm ki, qanunun icrası zamanı bu məsələlərə də diqqətin ayrılması çox vacibdir.

Eyni zamanda, çox qısa olaraq qeyd etmək istərdim. Təbii ki, Azərbaycan hökuməti tərəfindən koronavirusun

sahibkara, eləcə də kommersiya banklarına təsirlərinin minimallaşdırılması ilə bağlı səmərəli fəaliyyət həyata keçirilir. İşçi qruplarından biri məhz maliyyə xidmətləri ilə bağlı məsələlərə baxır. Amma, eyni zamanda, kommersiya banklarından kredit götürənlərə 3 ay müddətində güzəştin verilməsi məqsədəuyğun olardı. Artıq bir neçə ölkədə bununla bağlı addımlar atılıb. Dünya Bankı üzv ölkələrə belə bir tövsiyə verib. O baxımdan, 3 ay müddətində krediti olan vətəndaşlarımızın, eləcə də sahibkarların yubanmaları olursa, faizin və cərimələrin hesablanmaması daha məqsədəuyğun olardı. Mərkəzi Bank tərəfindən kommersiya banklarına mərkəzləşdirilmiş kredit təklif etməklə onların legitimliyinin qorunub saxlanması daha məqsədəuyğun olardı.

**Sədrlik edən.** Sağ olun, Vüqar müəllim. Razi Nurullayev.

**R.Nurullayev**. Təşəkkür edirəm. Hörmətli Sədr, əslində mən sual vermək istəyirdim. Amma sual düyməsini tapa bilmədim. Demək, Vüqar müəllim sağ olsun, izah etdi, mənim sualım elə bununla bağlı idi. Əmlak müsadirəsi əvvəlki variantda olub, indi xüsusi müsadirədir. Yəni belə çıxır ki, əvvəlki variantda əmlak müsadirə olunaraq, bir müddət həbsdə qalırdı, indiki halda isə artıq o müsadirə də oluna bilər. Burada aydın olmayan bir fikirdir, bu, aydınlaşsaydı, yaxşı olardı.

Fürsətdən istifadə edib, bir məsələyə fikir bildirmək istəyirəm, bayaq bildirə bilmədim. Artıq dördüncü dəfədir ki, burada iştirak edirəm və bu dörd dəfənin dördündə də biz iclasın 30 dəqiqəsi tamam olmamış fikirləri kəsirik və daha qısa variantlara, 3 dəqiqəyə və sair keçirik, digərlərinin səsi kəsilir. Mənə belə gəlir, təbii ki, çıxışlar, fikirlər təkrarlanırsa, yeni təkliflər, yeni yanaşmalar yoxdursa,

yeni fikirlər yoxdursa, bunu etmək lazımdır. Amma hörmətli Novruzəli müəllimin fikirlərinə qoşuluram və hesab edirəm ki, kifayət qədər maraqlı təkliflər, yanaşmalar ola bilər. Ona görə, əgər fikirlər təkrarlanırsa, dediyimiz bu məsələlərə biz gedə bilərik. Çünki iclasın başlanmasından 30 dəqiqə, bir saat keçməmiş, biz sanki yorulmuş kimi görünürük. Hörmətli jurnalistlər də bunu görür. Mən bunu şəxsən öz adımdan doğru saymıram. Təşəkkür edirəm.

**Sədrlik edən**. Sağ olun, Razi müəllim. Amma icazə verin, mən də deyim ki, Siz həmişə söz almısınız, Sizə söz də verilib. Bu bir. İkincisi, bu gün 30 dəqiqə məsələsini mən iclasın əvvəlində qoydum və bugünkü vəziyyətlə əlaqədar olaraq biz belə qərara gəldik ki, bu gün müzakirə keçirmirik. Əgər yadınızdadırsa, ondan qabaqkı iclaslar da mühüm məsələlərə həsr olunmuşdu. O ki qaldı reqlamentə, mən hər dəfə reqlamentlə bağlı bu salonda öz fikirlərimi ifadə edirəm. Ancaq burada mən məcburam, hörmətli həmkarlarımın sözlərinə də fikir verəm və onların istəyi ilə biz reqlamenti səsə qoyuruq. Əgər Siz istəmirdinizsə, reqlament məsələsini səsə qoyardınız. Tahir Mirkişili, buyurun.

**T.Mirkişili**. Hörmətli Sədr, mən səslənən suala qısa cavab vermək istəyirdim. Fikir verdinizsə, hörmətli Razi müəllim, əslində, yeganə dəyişiklik “əmlak müsadirəsi” ifadəsini “xüsusi müsadirə” ilə əvəz etməkdir. Yəni qəbul edilmiş Cinayət–Prosessual Məcəlləyə görə, “əmlak müsadirəsi” bir cəza növü kimi ləğv olunmuş və o “xüsusi müsadirə” ilə əvəz olunmuşdur. Fərq ondan ibarətdir ki, “xüsusi müsadirə” daha humanistdir. “Xüsusi müsadirə” zamanı əmlakın müsadirəsi yalnız həmin cinayətdə istifadə olunmuş və bununla bağlı olan əmlaka bağlıdır.

Mən bayaq çıxışımda onu da qeyd etdim ki, yeni qəbul olunmuş dəyişiklik daha humanistdir, daha konkret və daha lokallaşdırılmış cəza növü müəyyən olunmuşdur. Minnətdaram. Çox sağ olun.

**Sədrlik edən**. Sağ olun. Çıxış eləyən yoxdursa, biz qanun layihəsini səsə qoyuruq. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.08 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, çox sağ olun.

Hörmətli həmkarlar, gündəlikdən bizim iki məsələmiz qalıb və əgər etiraz etmirsinizsə, tənəffüssüz davam edək. Hamı razıdır?

**Yerdən.** (*Eşidilmir.*)

**Sədrlik edən.** Növbəti məsələ Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Məsələ barəsində Əli müəllim, söz Sizə verilir. Buyurun.

**Ə.Hüseynli**. Çox sağ olun. Hörmətli həmkarlar, sizə geniş məlumat təqdim olunub. Qısaca demək istəyirəm ki, burada bir rəqəm əlavə olunur. Mahiyyəti ondan ibarətdir ki, dövlət və yerli özünüidarəetmə orqanları tərəfindən "Məşğulluq haqqında" Qanunun pozulması ilə bağlı inzibati xəta işlərində icraatın başlanması prokurorluq orqanları tərəfindən həyata keçiriləcəkdir. Məhz buna görə də 540.5-ci maddə əlavə olunur. Səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən**. Sağ olun. Çıxış eləmək istəyən yoxdur. Səsə qoyuruq qanun layihəsini.

| **Səsvermənin nəticələri** | (saat 13.09 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, çox sağ olun.

15-ci məsələ "Dənizçinin şəxsiyyət sənədi haqqında Əsasnamə"nin və "Dənizçinin şəxsiyyət sənədinin spesifikasiyası, təsviri və nümunəsi"nin təsdiq olunması barədə" Qanunda dəyişiklik edilməsi haqqındadır. Məsələ barədə Tahir müəllim, söz Sizə verilir. Buyurun.

**T.Mirkişili**. Çox sağ olun. Hörmətli Sədr, qanun layihəsinə edilmiş dəyişiklik texniki xarakter daşıyır. Bildiyimiz kimi, 2018-ci ildə cənab Prezidentin Fərmanı ilə Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyası əsasında Dövlət Dəniz Agentliyi yaradılmışdır. Məhz qanun layihəsi həmin fərmana uyğun olaraq dənizçinin şəxsiyyət vəsiqəsində də "administrasiya" sözünün "agentlik" sözü ilə əvəz olunmasını nəzərdə tutur. Səsə qoymağınızı xahiş edirəm. Minnətdaram.

**Sədrlik edən**. Sağ olun. Tahir Kərimli. Buyurun, Tahir müəllim.

**T.Kərimli**. Təşəkkür edirəm, hörmətli Sədr. Əslində, bu, mənə bir qədər dövlət dili ilə bağlı çıxış eləmək imkanı verir. Biz burada "administrasiya" sözünü "agentlik" sözü ilə əvəz edirik. Mən plenar iclaslarda, komitə iclas-

larında dəfələrlə dövlət dilinin tətbiqi ilə bağlı çıxış eləmişəm. Bəzən deyirlər ki, bizim dilimiz çox zəngindir, mən nə bilim. Mən etiraz eləmirəm. Qədim ərəb, fars dillərindən, digər dillərdən gəlmə, vətəndaşlıq hüququ almış sözlər var. Bayaq da Musa müəllim bu məsələlərə toxundu. Bunları dəyişməyək, dəyişəndə mənasını itirir. Məsələn, mənim adımı ərəb dilinə çevirsən soyad olur, Tahir Kərimli yerinə "təmiz köməkli". Mən buna etiraz eləmirəm. Amma bir məsələ var, "Azərbaycan Respublikasında dövlət dili haqqında" Qanunun tələbləri nə dərəcədə gözlənilir? Əgər bu ingilis dilidirsə, eybi yoxdur, elə qəbul eləyək.

Fürsətdən istifadə eləyirəm. Bayaq toponimiya haqqında çıxış etmək istədim. Novruzəli müəllimin sözünə qüvvət, "toponimiya" sözü yalnız yerlə bağlıdır. Bəs "hidronomiya"nı dəyişmək zərurəti olanda o komitə ona baxır, baxmır? Yaxud bəzən görürük, dil haqqında müəyyən qurumlar deyir, dövlətimizdən kənar ərazilərdə də "Tbilisi"yə "Tiflis" deyək, "Yerevan"a "İrəvan" deyək. Məsələn, bizim Göyçəni Sevan ediblər. Bizim Toponimiya komissiyası ölkədən kənardakı o adlar, toponimiyalarla bağlı, hidronimiyalarla bağlı imkanı var, onları da təsdiq eləsin və xüsusən dövlət dilimizin tətbiqi ilə bağlı. Vallah, baxırsan hüquq lüğətinə, fəlsəfə lüğətinə, tibb lüğətinə, dilimizdə bir kəlmə yoxdur. Kim rus dilini, ingilis dilini yaxşı bilir, Allah işini avand eləsin. Dövlət dili var burada, indi mən təşəkkür edirəm, Milli Məclis nümunəvi orqanlardan biridir ki, həmişə dövlət dilinin tələbləri burada gözlənilir. Amma qanunvericilikdə, mən bunu deməkdən yoruldum. Ən azı utanıram və komitə iclaslarında on dəfədən artıq çıxış eləmişəm, dövlət dili gözlənilsin. Bəlkə də burada ingilis dilidir, deyək, yaxşı, qalsın, amma digər

dillərdən, latından, ingilisdən sözlər lazım olmadan gətirilir, mürəkkəbləşdirilir.

Bu yaxınlarda nəvəm olmuşdu, getdim. Azərbaycan türkcəsi ilə Toğrul, doğrul deməkdir də, özünü doğrultmaq. Doğrul qoymadılar, dedilər Azərbaycan dilində Toğrul olar. Özünəməxsus bir millətəm, özümə oxşamaq istəyirəm, qoymadılar ki... Ona görə, xahiş edirəm, dil məsələlərinə fikir verilsin. Hər sahədə, bütün sahələrdə. Fürsətdən istifadə edib, bu sözü dedim. Təşəkkür edirəm.

**Sədrlik edən**. Tahir müəllim, sağ olun. Mən düşünürəm ki, belə bir təkliflə Mədəniyyət komitəsində çıxış eləyə bilərsiniz, hansısa bir dinləmələr olsun. Hikmət müəllim Məmmədov, buyurun.

**H.Məmmədov**. Çox sağ olun. Elə mən də bayaq o məsələyə toxunmaq istəyirdim. Toponimlərdən başqa, hidronimlər var, etnonimlər var, oykonimlər var və s. Ona görə də təklif edəcəkdim ki, toponimyadan sonra mötərizə açıb adlar haqqında qanun eləyək, bu məsələ bitsin.

İndi müzakirə etdiyimiz məsələ ilə bağlı “Dənizçinin şəxsiyyət sənədi haqqında Əsasnamə”də dənizçinin şəxsiyyət sənədinin spesifikasiyası, təsviri və nümunəsi deyirik. “Spesifikasiya” sözünün azərbaycanca qarşılığı var, bu, “xüsusiyyəti” deməkdir. Gəlin bunu dəyişək, “Dənizçiliyin şəxsiyyət sənədinin xüsusiyyəti, təsviri və nümunəsi” kimi edək. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Tahir müəllim, Sizin sözünüz var?

**Yerdən.** (*Eşidilmir.*)

**Sədrlik edən.** Yoxdur. Qanun layihəsini səsə qoyuruq.

| **Səsvermənin nəticələri** | (saat 13.15 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, çox sağ olun.

Sonuncu məsələmiz 16-cı məsələdir. "Böyük Vətən Müharibəsində Qələbənin 75 illiyi (1945–2020)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar" Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə.

Məsələ haqqında Əli Hüseynli məruzə edir. Əli müəllim, buyurun.

**Ə.Hüseynli**. Çox sağ olun. Hörmətli Sahibə xanım, hörmətli həmkarlar! May ayının 9-da Böyük Vətən Müharibəsində Qələbənin 75 illiyi qeyd olunacaq. Təsadüfi deyildir ki, möhtərəm cənab Prezident tərəfindən Böyük Vətən Müharibəsində Qələbənin 75 illiyi (1945–2020) yubiley medalının təsis olunması haqqında qanun layihəsi təqdim edilmişdir. Biz hər zaman vurğulamışıq ki, Azərbaycan xalqı o zaman Sovetlər Birliyinin tərkibində yaşasa da, Böyük Vətən Müharibəsində həm ön cəbhədə, həm də arxa cəbhədə qəhrəmanlıq nümunələri göstərmişdir. Möhtərəm cənab Prezident MDB Dövlət başçılarının sammitində sonuncu görüşündə bir sıra məsələləri, o cümlədən Böyük Vətən Müharibəsində Azərbaycan xalqının iştirakı, bu gün bizə qarşı düşmən mövqelərdə olan Ermənistanın, əslində, riyakar mövqeyini bir daha geniş ictimaiyyətə açdı.

Bununla yanaşı, qeyd etmək istəyirəm ki, biz bu tarixi hadisəyə böyük ehtiramla yanaşırıq, bizim babaların,

xalqımızın o dövrdə göstərdiyi qəhrəmanlığı həmişə hörmətlə xatırlayırıq. Təqdim olunmuş qanun layihəsində, yubiley medalında çox təqdirəlayiq haldır ki, Azərbaycanın dövlət atributları da öz əksini tapmışdır. Belə ki, medalda Azərbaycan Respublikasının Dövlət bayrağının rəngləri əks edilmişdir. Bu yubiley medalı ilə Böyük Vətən Müharibəsi cəbhələrində döyüş əməliyyatlarında iştirak etmiş, faşist işğalçılarına qarşı gizli mübarizə aparmış, arxa cəbhədə çalışmış, həmin dövrdə SSRİ Silahlı Qüvvələrində xidmət etmiş Azərbaycan vətəndaşlarının, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin təltif edilməsi nəzərdə tutulur. Sözsüz ki, bizim xalqımızın qəhrəman oğulları Azərbaycandan kənarda da, yəni gizli mübarizə aparanda da qəhrəmanlıq nümayiş etdiriblər, onların bir hissəsi müxtəlif səbəblərdən o ölkələrdə qalıblar, Avropada yaşayıblar. Məhz buna görə də qanunun tətbiq dairəsi bu qədər geniş götürülüb.

Hesab edirəm ki, belə bir yubiley medalını təsis etməklə, biz Azərbaycanın orden və medallarına çox ciddi bir töhfə vermiş olacağıq. Arzu edirik ki, bu yubiley medalı ilə təltif olunan insanlarımızın sayı da hər zaman çox olsun. Təşəkkür edirəm.

**Sədrlik edən**. Sağ olun, Əli müəllim. Müzakirələrə keçirik. Fazil Mustafa, buyurun.

**F.Mustafa**. Hörmətli Sahibə xanım, hörmətli millət vəkilləri. Prinsip olaraq, faşizm üzərində qələbənin 75 illiyi ilə bağlı belə bir medalın verilməsinə bir qədirşünaslıq hadisəsi kimi baxıram. Çünki burada Azərbaycan xalqının övladlarının da zəhməti olub. Amma müstəqil bir dövlətin heysiyyəti baxımından hesab edirəm ki, biz gələcəkdə bu terminlərə diqqətlə yanaşmalıyıq. Məsələn, “Böyük Vətən Müharibəsi” terminini “II Dünya Mühari-

bəsi" termini ilə əvəz eləməyə keçməliyik.

Baxın, 1812-ci ildə Kutuzovun Napoleon orduları ilə savaşına da "Vətən müharibəsi" deyilirdi. Biz qayıdıb ona "Vətən müharibəsi" deməyimiz tarix kitablarında vərdiş idi, amma sonradan bu, nəyə gətirib çıxarır? 23 fevralı Azərbaycanda ordunun yaranması günü qeyd eləyən insanların sayı çoxalmağa başlayır, 26 iyuna baxış onunla müqayisədə tamamilə arxa planda qalır. Eyni şey, diqqət edirsinizsə, bir aydan sonra 28 aprel gəlir və biz Azərbaycanda müstəqil dövlətin varisiyik, həmin müstəqil dövlətin işğalının 100 illiyi tamam olur.

Mən başa düşürəm, biz qonşu dövlətlərlə yaxın dostluq münasibətlərini qoruyub saxlamalıyıq, hamısı olmalıdır. Başqa ölkələrin hansısa bir şəkildə narazılığına səbəb olmayan bir üslubda biz bu hadisələrə ayrıca, müstəqil dövlət təfəkkürü ilə qiymət verməliyik və bu yüz illiyi hansısa formada bir sənədlə qeyd eləməliyik. Çünki bu tarixi bir hadisədir. Burada söhbət mövcud ölkələrdən getmir. Bolşevik Rusiyası tərəfindən Azərbaycan müstəqil dövlətinin varlığına son qoyulmasından söhbət gedir. İndi də "Böyük Vətən Müharibəsi" anlayışı ehtiva etmir ki, Əhmədiyyə Cəbrayılov Fransada faşizmə qarşı vuruşubdur. Biz həmin dövrdən imtina eləmədən, onu da əhatə eləyən 1939–1945-ci illər ümumi faşizm üzərində Qələbə termininə niyə qayıtmırıq? Başa düşürəm ki, bu, bəzən kimlərsə tərəfindən doğru anlaşılmaya bilər. Amma bunun nəticəsidir ki, başqa ölkələrinin siyasətçiləri bu gün Jirinovskinin obrazında Azərbaycanı və başqa respublikaların adlarını da tələffüz edərək həmin "Böyük Vətən"ə dəvət edirlər. Həmin vətənin konfederasiyasının yaranmasına. Ona görə də biz müstəqil dövlətçilik şüurumuzun möhkəmlənməsi baxımından, gələcəkdə bu terminlərə

ciddi diqqətlə yanaşmalıyıq. Bizim üçün Böyük Vətən Müharibəsi – Qarabağ müharibəsidir. Ondan, Azərbaycandan kənar tarixdə də, bu gün də hər hansı bir böyük vətən ola bilməz. Ona görə bu termin üzərində düşünməyimiz olduqca vacibdir. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Musa müəllim Qasımlı, buyurun.

**M.Qasımlı.** Çox hörmətli Sahibə xanım, hörmətli millət vəkilləri! Cənab Prezidentimizin imzası ilə daxil olan qanun layihəsinin lehinə səs verəcəyəm. İlk növbədə ona görə ki, bu, həm bizim tarixi keçmişimizə böyük hörmətin, ehtiramın əlamətidir, həm də indiki və gələcək nəsillərimizdə yüksək vətənpərvərlik hissi aşılayan bir qanun layihəsidir.

Çox hörmətli Əli müəllim mükəmməl bir təqdimat etdi. Mən Əli müəllimin dediklərini təkrar eləmək istəmirəm, tezis olaraq bəzi məsələləri bildirmək istəyirəm. Bizim xalqımız, Azərbaycan xalqı ainti-hitlerçi koalisiyaya daxil olan ölkələrin xalqları cərgəsində həm on cəbhədə, həm faşizmə qarşı anti-faşist müqavimət hərəkatında, həm partizan hərəkatında, həm də arxa cəbhədə qəhrəmanlıqlar göstərib. Mən burada, eyni zamanda, partizan hərəkatını və anti-faşist müqavimət hərəkatını vurğulamaq istəyirəm. İndiyə qədər Azərbaycanın qələbəsinin üstünə kölgə salmaq istəyənlər bilməlidirlər ki, II Dünya Müharibəsi bitdi, Böyük Vətən Müharibəsi başlayanda SSRİ-nin beynəlxalq hava limanı xəttində yalnız bir xətt işləyirdi. O da Bakı–Tehran xətti idi. Dövrün görkəmli xadimləri – Şarl de Qoll, Stalin və başqaları Bakıdan gəlib keçmişdilər. Hətta bunu söyləməyi vacib bilirəm, Şarl de Qoll Azərbaycan Dövlət Opera və Balet Teatrında “Koroğlu” operasına baxanda tərcümə eləyənə demişdi ki, anti-faşist müqaviməti

hərəkatındakılar mənə bunu deyiblər, mən artıq bunu bilirəm. Demək istəyirəm ki, Azərbaycanın nəqliyyat-kommunikasiya məsələlərində də çox böyük xidməti olub.

Söyləmək istədiyim digər bir məsələ cənab Prezidentimizin də bütün beynəlxalq toplantılarda çox mükəmməl şəkildə söylədiyi kimi, bu gün Azərbaycan tarixi keçmişinə, irsinə hörmət bəsləyir, Ermənistanda isə nasizm, neofaşizm dövlət siyasəti səviyyəsinə qaldırılıb. Mən arxivçi olduğum və bır sıra çox məxfi sənədləri oxuduğum üçün söyləyirəm ki, Nijde təkcə türklərə qarşı vuruşmamışdı, slavyanları, rusları, yəhudiləri və gürcüləri də öldürməyi əmr edirdi. Bu da çox vacib bir məsələdir və hesab edirəm ki, belə bir medalın qəbul olunması müstəsna əhəmiyyət daşıyır. Həm bu günümüz, həm tarixə hörmət, həm də gələcəyimiz baxımından. Diqqətinizə görə təşəkkür edirəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun, Musa müəllim. Bəhruz Məhərrəmov buyursun.

**B.Məhərrəmov.** Hörmətli Sədr, hörmətli millət vəkilləri! Mən də müvafiq medalın təsis olunmasını çox yüksək qiymətləndirirəm. Çünki bizim tariximizin müəyyən dövründə Böyük Vətən Müharibəsinin iştirakçıları, yaxud o dövrdə fəaliyyət göstərmiş nə qədər adam qalıb ki? Biz tariximizin, müstəqillik tariximizin müəyyən dövründə hətta həmin qrup insanlara müəyyən haqsızlıqlar da etmişik və düşünürəm ki, bu, bizim mənəvi borcumuzdur. Bu, öz yerində.

Mən burada bir təklif etmək istəyirəm. Nəyi? Təltif edilən şəxslərin sırasına biz faşizm əleyhinə mübarizədə fərqlənən şəxslərin əlavə edilməsi ilə çox gözəl bir addım atmış olarıq. Bilirsiniz, faşizm ideyaları, erməni faşizmi ideyaları bu gün də yaşayır, Avropada, Asiyanın bir çox

ölkələrində, ərəb ölkələrində bu gün də türk dünyasına qarşı, Azərbaycana qarşı kifayət qədər fəal şəkildə mövcuddur, qüvvədədir. Bu sahədə bizim diplomatlarımız, millət vəkilləri, eyni zamanda, ayrı-ayrı şəxslərimiz, jurnalistlərimiz fəaliyyət göstərir və faşizm əleyhinə mübarizədə onlar fərqlənir. Hesab edirəm ki, təltif edilə bilən şəxslərin sırasında məhz bu şəxslərin də adı olmalıdır. Yəni, təbii ki, burada əsas məqsəd sadəcə, Böyük Vətən Müharibəsində qələbənin 75 illiyi münasibəti ilə medalın təsis edilməsidir. Bu öz yerində.

Vaxtım var ikən, mən ikinci bir məqama diqqət çəkmək istəyirəm. Düzdür, mövzudan bir az kənardır, amma burada onsuz da mövzudan kənar kifayət qədər çıxışlar olur. Xahiş edirəm, məni də düzgün başa düşəsiniz. Bu karantin rejimidir və mən Biləsuvar rayonunu təmsil edirəm. Orada mən artıq müxtəlif dövlət orqanlarına müraciət etmişəm. Hələ ki bir hərəkət, təsir görmürəm. Burada onlarca kənddə hazırda su yox səviyyəsindədir və su olmayan yerdə hər hansı sanitariyadan, gigiyenadan danışmaq olmaz. Mən çox xahiş edirəm, Milli Məclisin bu yüksək tribunasından istifadə edib bir daha üzümü aidiyyəti orqanlara tutub bunu xahiş edirəm ki, bu məsələyə təcili bir əncam çəkilməlidir. Təşəkkür edirəm, çox sağ olun.

**Sədrlik edən**. Sağ olun. Erkin Qədirli, buyurun.

**E.Qədirli.** Çox sağ olun, xanım Sədr. Mən, əslində, komitədə nəyəsə lehinə səs verdiyim halda, plenar iclasda ona qarşı çıxmağı doğru saymıram, bu etik də deyil. Amma burada hamınızdan üzr istəyərək özüm üçün bir üzrlü hal gördüm. Məsələ ondadır ki, koronavirus ilə bağlı görülən tədbirlər kontekstində hamı kimi bizim komitə də WhatsApp qrupları üzərindən, görüşmədən müzakirə apa-

rır və WhatsApp qrupunda mən bu layihənin lehinə səs vermişdim. Yalnız orada, göndərilən fotoşəkildə medalın təsviri rəngsiz idi – ağ, qara. Mən indi onun rəngli təsvirini gördüm və bununla bağlı demək istəyirəm.

Mən çox təəssüf edirəm ki, bizim Nazirlər Kabineti bayrağımızın şaquli asılması ilə bağlı yanlış bir qərar qəbul edib. Daha öncəki qərar doğru idi. Göy rəng solda olmalı idi, indi onu şaquli asılmada sağda yerləşdiriblər. Bilirsiniz ki, biz yuxarıdan aşağıya və soldan sağa oxuyan mədəniyyətlərə aidik və müqayisə edə bilərsiniz, zolaqlı bayrağı olan bütün ölkələrdə yuxarıda olan zolaq şaquli asılmada soldan birinci olur. Yəni şaquli asılmada yuxarıdan birinci olan soldan da birinci olur. Buna ingiliscə "çevir və döndər" deyirlər. Bizdə sadəcə olaraq, götürdülər bunu belə salladılar, asmadılar. Bu, doğru deyildir. Bu təsvirdə göründüyü qədəri ilə biz indi qanun qəbul edirik, amma qanun qüvvəli akta uyğun qəbul edirik.

Mən xahiş edirəm, ya Milli Məclis öz təşəbbüsü ilə bu qərarı dəyişdirsin, ya Nazirlər Kabinetinə, Siz xanım Sədr, yaxud biz Milli Məclis olaraq bir tapşırıq verək, tövsiyə verək ki, hansı isə bir şəkildə əvvəlki qərarına qayıtsın. Çünki bu, yanlış asılmadır.

Mən, doğrusu, heç bilmirəm, indiki halda bu layihəyə necə səs verim? Çünki komitədə lehinə səs vermişdim və təkrar da onun üzərində dururam ki, komitədə lehinə səs vermiş deputat plenar iclasda əgər xüsusi hal yoxdursa, səsinə və layihəyə qarşı çıxmamalıdır. Mən bu halda, sadəcə olaraq, bitərəf qalmalı olacağam. Çünki əleyhinə səs vermək istəmirəm. Mənim öz babam da bu müharibədə savaşıb, 1942-ci ildə Mozdokdan başlayıb, 1945-ci ildə Berlində bitirib. Odur ki, bu söhbət ailə hekayəsi olaraq mənim üçün əzizdir. Amma mən çox böyük təəssüf hissi

ilə bildirməliyəm ki, bayrağımızın təsviri, daha doğrusu, medaldakı bayraq təsviri Nazirlər Kabinetinin yanlış qərarına uyğun olaraq göstərilib. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Məlahət xanım İbrahimqızı, buyurun.

**M.İbrahimqızı.** Çox sağ olun, xanım Sədr. Mən də sözsüz ki, bu qanun layihəsində edilmiş dəyişikliklərin lehinə səs verəcəyəm. Bu il faşizm üzərində qələbənin 75 illiyidir. Azərbaycanda elə bir ailə tapılmaz ki, onların ailəsində, qohumlarında müharibə iştirakçısı olmasın. Bizim ailəmizdə də həm itkin, həm də şəhid var. Ona görə biz məmnuniyyətlə buna səs verəcəyik.

Mən yeri gəlmişkən, nə demək istərdim? Elə Əli müəllimdən xahiş edərdim. Şəhid ailələri, Qarabağ müharibəsi veteranları ilə biz tez-tez görüşürük. Məsələn, bu yaxınlarda mənə bir qrup şəhid ailəsi müraciət etdi, dedilər ki, onların övladları "Azərbaycan bayrağı" ordeninə layiq görülübdür və "Azərbaycan bayrağı" ordeni "Milli Qəhrəman"dan sonra ikinci statusda olan bir dövlət mükafatıdır, ordenidir. Çox gözəl ki, bizdə Milli Qəhrəmanlara böyük dövlət qayğısı var – yəni həm mənəvi, həm də maddi. Milli qəhrəman ailələri təqaüdlə təmin olunur və bu təqaüdün də məbləği, belə deyək, kifayət qədər böyükdür. Amma ondan sonra, ikinci dərəcəli olan "Azərbaycan bayrağı" ordeni ilə təltif olunmuş şəhidin ailəsində heç bir maddi təqaüd yoxdur, onlar da digər şəhid ailələri ilə eyni təqaüd alırlar.

Mən, Əli müəllim, Sizdən çox xahiş edirəm. Məsələn, mənim ərazimdə bir ana var, iki övladı, Novruzov qardaşları, ikisi də şəhid olubdur və ulu öndərimiz onlara "Azərbaycan bayrağı" ordeni veribdir. Amma o da başqa şəhid ailələri kimi təqaüd alır. Təbii, bizim üçün bütün

şəhidlərimiz qiymətlidir, bizim gözümüzün işığıdır, bizim varlığımızdır. Amma əgər dövlət mükafatı, dövlətimizin ali ordenini, medalını alırsa, hesab edirəm ki, burada da hansı isə bir maddi prinsiplərə riayət olunsa, daha yaxşı olardı. Sözsüz ki, imkan daxilində. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Siyavuş müəllim, sualınız var? Buyurun.

**S.Novruzov.** Birinci, xahiş edirəm, bu elə bir məsələdir ki, bunu səsə qoyaq. Bunun geniş müzakirəsinə o qədər də ehtiyac yoxdur.

İkinci, Məlahət xanım qeyd etdi, indi Məlahət xanıma elə çatdırıblar. 3 dənə "Azərbaycan bayrağı" ordeni alsa, bir "Milli Qəhrəman"a bərabər hesab oluna bilər, yəni birini alanda yox. Ona görə keçmişdə də var idi, "Qırmızı ulduz" ordeni alırdılar və bunun üçünü alanda, bir Sovet İttifaqı Qəhrəmanına bərabər idi. İndi bir dənəsi ilə bu nəzərdə tutulmayıb və Azərbaycanda orden və medalların sırası var. Hər biri sıralanıbdır, o sıraya uyğun olaraq da onun öz yeri var. Bu baxımdan da, xahiş edirəm, səsə qoyaq.

**Sədrlik edən.** Hörmətli həmkarlar, 6 nəfər var. Əgər təkid edən yoxdursa, səsə qoyacağıq. Təkid edən var? Kim isə çıxış etmək istəyir?

**Yerdən.** (*Eşidilmir.*)

**Sədrlik edən.** Hikmət müəllim, buyurun.

**H.Məmmədov.** Çox sağ olun. Hörmətli Sahibə xanım, mən düşünürəm ki, müəyyən məsələlərə aydınlıq gətirmək lazımdır. Ona görə israr etdim.

Birincisi, Böyük Vətən Müharibəsində qələbənin 75 illik yubileyindən söhbət gedir. Biz bilirik ki, müharibələr kateqoriyalara bölünüb. Tarix kitablarında da, hüquqda da. İşğalçılıq müharibələri var, vətən müharibələri var, vətən-

daş müharibələri var, Böyük Vətən Müharibəsi var. Ona görə də mən düşünürəm ki, hadisəyə doğru qiymət verməyi bacarmalıyıq və "Böyük Vətən Müharibəsi" ifadəsi doğrudur. Çünki istər hüquqi, istərsə də tarixi konteksdə o dövrdə biz SSRİ-nin vətəndaşları olduğumuz üçün SSRİ bizim vətənimiz hesab olunurdu və o mənada Böyük Vətən hesab olunurdu. Ona görə də bunu dəyişməyə ehtiyac yoxdur. Biz bu gün başqa cür qərar qəbul etməklə tarixi reallığı, tarixi keçmişi dəyişə bilmərik.

Qaldı bu medalın təsviri ilə bağlı. Mən düşünürəm, burada düzgün ifadə olundu ki, rənglər soldan sağa olmalıdır, amma Nazirlər Kabinetinin qərarında məsələ mübahisəlidir. Mən yanlış demək istəmirəm. Çünki qərara əsasən asılan bayrağa həm öndən, həm də arxadan baxmaq olar. Öndən baxanda qayda pozulur, arxadan baxanda doğrudur. Burada korrektə olunmalıdır, əgər qapalı məkandayıqsa, öndən baxacağıqsa, onda dəyişməlidir, yox, eyni vəziyyətdə açılmış bayrağa öndən və arxadan baxırıqsa, onda vəziyyət dəyişir. Ona görə də bu məsələ başqa bir məsələdir. Konkret halda mən də düşünürəm ki, rənglər soldan sağa sıralanmalıdır. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Səsə qoymazdan əvvəl görək ayrı bir adam çıxış etmək istəmir ki? Mən düzmü başa düşdüm? Qüdrət müəllim, yazılmısınız? Buyurun, onda.

**Q.Həsənquliyev.** Çox sağ olun, Sahibə xanım. Əvvəl, doğrudan da, danışmaq istəmirdim. Amma Böyük Vətən Müharibəsi ifadəsi ilə əlaqədar olaraq fikrimi bildirmək istəyirəm. Əlbəttə, Azərbaycanda 1920-ci ildə Rusiyanın, yəni bolşevik Rusiyasının dəstəyi ilə bizim yerli bolşeviklər tərəfindən Azərbaycanda hakimiyyət dəyişikliyi edilib. Bizim Sovetlər Birliyinə qoşulmağımız da belə olub ki, 1922-ci ildə könüllü şəkildə, həmin o hakimiyyətə

gəlmiş bolşeviklər tərəfindən Sovet İttifaqının üzvü edilmişik. Amma 1941-ci ildə alman faşizmi Azərbaycana hücum edəndə heç Azərbaycanın özündə insanların çoxu bilmirdi, bu nasional-sosializm nə deməkdir. Onlar SSRİ-ni öz vətənləri sayırdılar və o vətən uğrunda da vuruşurdular. Yeri gəlmişkən, deputat həmkarlarım üçün deyim ki, mənim əmim həmin müharibədə həlak olub, atam isə yaralanıb. Ona görə də onlar öz vətənləri uğrunda vuruşurdular. Yəni heç almanlar hücum etməsə idi, onlar bilmirdilər ki, o nasional-sosializm ideologiyası nə olan şeydir və onlar, Fazil bəy deyən kimi, faşizmə qarşı vuruşmayıblar, vətənlərini, sadəcə olaraq, qoruyublar.

İkinci, bunu Fazil bəy dedi, əlbəttə, bunun siyasi çalarları da var. Bu da ondan ibarətdir ki, bu gün Ermənistanda, cənab Prezident də söylədi, həmin o faşizmin nümayəndəsi Nijdeyə 6 metrlik böyük bir abidə ucaldıldığı halda, Azərbaycanda biz öz tariximizə, hesab edirəm, həm də o müharibədə vuruşmuş insanlarımıza hörmət əlaməti olaraq məhz medalı bu cür adlandırmalıyıq. Ona görə ki onlar, həqiqətən də, öz vətənləri uğrunda vuruşurdular. Ona görə də onu Böyük Vətən Müharibəsi adlandırmaqda mən heç bir siyasi qəbahət görmurəm. Hüquqi mənada bir problem görmürəm, əksinə, hesab edirəm ki, bu bütün mənalarda, elə insanlıq baxımından da, siyasi baxımdan da ölkəmizin maraqlarına cavab verən yanaşmadır. İstədim ki, deputat həmkarlarımızın diqqətinə bu məqamı çatdırım. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Təklif var, səsə qoyulsun.

**Yerdən.** (*Eşidilmir.*)

**Sədrlik edən.** Aydın müəllim, danışmaq istəyirsiniz? Gəlin, onda belə edək – hamı danışsın. Çünki bilirsiniz, mən bir-bir belə söz verirəm, sonra da narahatlıq yaranır

ki, kimə isə söz verildi, kimə isə verilmədi. Ona görə, xahiş edirəm, ya səsə qoyuruq, ya da ki, Aydın müəllim, nə isə xüsusi bir fikriniz varsa, buyurun, ifadə edin.

**A.Mirzəzadə**. Təşəkkür edirəm, Sahibə xanım. İki məsələ. Birincisi, yaranmış vəziyyət ilə əlaqədar olaraq komitələrin onlayn iclasları keçirilir. Amma bizə verilən protokollarda bu qeyd edilməyibdir. Bu, tarix məsələsidir. 50 ildən, 100 ildən sonrakı nəsillər bu protokollara baxanda görməyəcəklər ki, bu iclaslar onlayn keçirilib. Ona görə də mənim təklifim ondan ibarətdir ki, onlayn keçirilən iclasların protokollarında bunların onlayn keçirildiyi qeyd edilsin.

İkinci məsələ, medalda rənglərin düzülüşü ilə bağlı. Vaxtaşırı bayrağımız yuxarıdan aşağı asılarkən rənglərin hansı formada olması barəsində müzakirələr gedib. Yəqin ki, əgər soldan birincisi göy rəng olsa idi, kim isə məsələ qaldıracaqdı, niyə yaşıl deyil. Mənə elə gəlir ki, bu prinsipial məsələ deyil. Əsas məsələ odur ki, medalda hər 3 rəng öz əksini tapıb. Təşəkkür edirəm.

**Sədrlik edən.** Mən hamıya söz verəcəyəm. Soltan Məmmədov, buyurun.

**S.Məmmədov**. Xanım Sədr, təşəkkür edirəm. Hörmətli həmkarlar, mən təqdim olunan qanun layihəsini dəstəkləyirəm. Sadəcə, həm indi təqdim olunmuş qanun layihəsi, həm də bundan öncə təqdim olunmuş qanun layihələri haqqında qısaca bir fikrimi bildirmək istərdim. Əminəm ki, hər bir qanun layihəsi müvafiq komitələrdə çox geniş müzakirə olunur, eləcə də bizim bugünkü iclasımızda qarşıya çıxan bütün texniki suallar, əlbəttə, orada müzakirə olunur. Mənim, sadəcə, təklifim ondan ibarət olardı ki, hər bir komitə həmin müzakirədən sonra mütləq qaydada digər komitə üzvlərinə, Milli Məclisin digər üzvlərinə

qəbul olunmuş bu qanun layihələrini öz təşəbbüsləri ilə təqdim etsinlər. Bu müzakirələr məhz oflayn qaydada həyata keçirilsin ki, Məclisdə müzakirələrdə bir çox məsələlər artıq həll edilmiş olsun. Belə ki, müzakirə olunan məsələlərin, demək olar, hər biri bizim seçicilər qarşısında üzərimizə götürdüyümüz öhdəliklər, onların qaldırdıqları məsələlər ilə bağlıdır. Əminəm, hər bir millət vəkili, hər bir komitə də geniş müzakirə olunan bu məsələlərlə bağlı öncədən müxtəlif sualları onların qarşısında qaldıra bilər, öz suallarına cavab ala bilər. Bugünkü tədbirlərdə biz artıq daha önəmli, cavablandırılmamış, yaxud digər suallara cavab verilərkən qarşıya çıxan məsələləri qaldıra bilərik. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Soltan müəllim. Qənirə xanım Paşayeva, buyurun.

**Q.Paşayeva**. Hörmətli Sahibə xanım. Mən fikrimi çox qısa şəkildə söyləyəcəyəm. Layihəni, əlbəttə, hamımız dəstəkləyirik. Mənim öz babam da bu müharibədə vuruşub və bizim nəslimizdə çoxlu sayda insanlar müharibədə həyatını itirib, itkin düşüb və Azərbaycan ailələrinin əksəriyyəti üçün bu, çox həssas bir məsələdir. Biz bu layihəni dəstəkləyirik.

Amma mənim bir xahişim var. Əgər siz də dəstəkləyərsinizsə, mən inanıram, dəstəkləyərsiniz, biz Mədəniyyət komitəsi olaraq Mədəniyyət Nazirliyinə bir müraciət hazırlayaq. Məsələ ondan ibarətdir ki, 75 illik gəlir. Bizim Azərbaycanımızın bu istiqamətdə gördüyü böyük işləri özündə əks etdirən ayrı-ayrı Azərbaycan filmləri var, amma xarici dillərdə, məsələn, ingilis dilində 15–16 dəqiqlikdir. Biz bunu dünyaya təqdim edək, hər tərəfə yayılsın, belə bir filmimiz yoxdur. Yəni qısa şəkildə, amma Azərbaycan xalqının göstərdiyi qəhrəmanlıqları

özündə əks etdirən xarici dillərdə belə bir filmə ehtiyac var. Əgər etiraz etməzsinizsə, biz komitəmiz adından Mədəniyyət Nazirliyi qarşısında bu məsələ ilə bağlı təklif irəli sürərik. Çox təşəkkür edirəm.

**Sədrlik edən.** Qənirə xanım, sonra biz bu məsələyə qayıdarıq, çünki komitənin qərarı olmalıdır. Biz bu barədə Sizinlə danışarıq.

Sonuncu çıxış. Sahib müəllim, buyurun. Sahib Alıyev.

**S.Alıyev.** Təşəkkür edirəm. Hörmətli xanım Sədr, dəyərli həmkarlar. Mən bütövlükdə hörmətli Fazil Mustafanın fikirlərini dəstəkləyirəm. Bəli, biz bu gün, doğrudan da, vətən müharibəsi şəraitindəyik və biz bu gün məhz eyni ilə 1941–1945-ci illərdə olduğu kimi, faşizm və işğalçılıq ideologiyasını özləri üçün əsas seçənlərlə müharibə vəziyyətindəyik. Amma söhbət əgər o medalın adından gedirsə, mən bunu tamamilə doğru hesab edirəm. Az öncə hörmətli Hikmət müəllim də bunu qeyd etdi və biz nəzərə almalıyıq ki, o zaman azərbaycanlılar təkcə tutaq, Moskvanı, Leninqradı və başqa şəhərləri deyil, həm də Bakını qoruyurdular. Hitlerin o zaman tutulmasını son dərəcə vacib saydığı 3 şəhər var idisə, onların biri Moskva, digəri Stalinqrad, üçüncüsü Bakı idi. Yəni o zaman aparılan müharibə həm də Azərbaycan torpaqları uğrunda aparılan müharibə idi, vətən uğrunda aparılan müharibə idi və ona görə də bu baxımdan mən bu adı çox doğru hesab edirəm. Diqqətinizə görə təşəkkür edirəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Səsə qoymazdan əvvəl Əli müəllimdən xahiş edirəm, bir-iki sual var idi, onlara da münasibət bildirsin.

**Ə.Hüseynli**. Çox sağ olun, Sahibə xanım. Əslində, mən tarixi hadisələrlə bağlı, tarix ilə bağlı hörmətli millət vəkillərinin söylədikləri fikirlərə müdaxilə etmək, şərhlər

vermək istəmirəm. Çünki hər halda bu, hazırda bizim işimiz deyil. Amma onu demək istəyirəm ki, Fazil müəllim, məhz medalın qəbul olunmasının özü də bizim müstəqil dövlətçilik düşüncəmizin tərkib hissəsidir.

Məlumat üçün deyim ki, Müstəqil Dövlətlər Birliyi İcraiyyə Komitəsi də Böyük Vətən Müharibəsində qələbənin 75 illiyi ilə bağlı bir medal təsis edir. Biz isə müstəqil dövlət kimi özümüz bir medal təsis edirik. Biz Xalq Cümhuriyyətinin 100 illiyini qeyd etdik, amma birmənalı biz o fikri təsdiq edə bilərik ki, Azərbaycan xalqı və Azərbaycan dövləti heç zaman olmadığı kimi, indi müstəqil yaşayır və müstəqil qərarlar qəbul edir. Yəni ancaq bu məsələ ilə bağlı fikirlərinizi bölüşmürəm və hesab edirəm ki, bu medalın qəbul olunması Azərbaycan dövlətinin iradəsidir. Azərbaycanlılara, Böyük Vətən Müharibəsində hansı dövlətlər birliyinin tərkibində yaşamasından asılı olmayaraq öz vətənini, ailəsini, dövlətini, xalqını müdafiə etmiş insanlara verdiyimiz bir töhfədir. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun, Əli müəllim. Nəzərə alaq ki, bu birinci oxunuşdur. Bəzi çıxışlarda təfsilatına qədər müzakirələr getdi. Bizim hələ iki oxunuşumuz var. Elə bilirəm ki, hər birinizin fikirləri sonra da ifadə olunar və nəzərə də alınar.

Hörmətli həmkarlar, məsələni səsə qoyuram. Buyurun, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.45 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 1 |
| Bitərəf | 2 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |

Nəticə: Qəbul edildi

Qəbul edildi, çox sağ olun.

Hörmətli həmkarlar, iclasımız sona çatdı. Səmərəli iş üçün mən sizin hamınıza minnətdarlığımı bildirirəm. Media nümayəndələri burada yoxdur, amma bizi izləyirlər, onlara da minnətdarlığımı bildirirəm. Sağ olsunlar.

# EDİLMƏMİŞ ÇIXIŞIN MƏTNİ

***30 mart 2020-ci il***

**Azay Quliyev.** Hörmətli Sədr, hörmətli millət vəkilləri. Cənab Prezidentin koronavirusla bağlı zamanında qəbul etdiyi çevik və təxirəsalınmaz qərarlar bu gün bizim ölkədə epidemiyanının faciəvi həddə çatmasının qarşısını hələlik aldı. Operativ qərərgahın 24 saat fasiləsiz fəaliyyəti və işinin düzgün qurması nəticəsində bü günə kimi xəstəlik nəzarətdədir. Lakin epidemiyanın geniş yayılmasının qarşısının alınmasında ən böyük problem karantin rejiminin tələblərinə heç də hamının riayət etməməsi və bəzi vətəndaşların öz məsuliyyətini tam olaraq, dərk etməməsidir.

Belə halda, yəni karantin rejiminə tam olaraq əməl olunmaması bizi daha sərt addımlar atmağa vadar edir. Biz ABŞ-ın, İtaliyanın, İspaniyanın və çətin vəziyyətdə olan digər Avropa ölkələrinin acı taleyinin yaşanmasına, epidemiyanın nəzarətdən çıxaraq, milli faciəyə çevrilməsinə imkan verə bilmərik və verməməliyik. Ona görə də düşünürəm ki, bu kimi vətəndaşlar karantin rejimini pozmaqda davam etsələr, hansı ki, edirlər, belə şəratdə fövqəladə vəziyyət rejiminin tətbiq olunmasından, yəni vətəndaşların hərəkət sərbəstliyinə məhdudiyyətin qoyulmasından başqa çarə qalmayacaq.

Bizim indi iki yolumuz var, ya operativ qərargahın müəyyən etdiyi vaxta, yəni aprelin 20-nə kimi könüllü olaraq evdə qalmalı, social təcridin qaydalarına tam əməl etməli, bir-birimizin təhlükəsizliyini qorumalı, güclü və nizam-intizamlı xalq kimi bu gözəgörünməz düşmənə birgə qalib gəlməliyik. Ya da fövqəladə rejimi tətbiq edərək dövlətin təhlükəsizliyini və insanların sağlamlığını daha sərt şəkildə təmin etməliyik. Burada artıq başqa

variant yoxdur. Əks təqdirdə epidemiyanın nəzarətdən çıxması təhlükəsi realdır və bunun da nəticələrini təsəvvür etmək yəqin ki, çətin deyil.

Bütün bunlarla yanaşı, məhdudlaşdırıcı tədbirlərin təsirini artıqmaq üçün biz bəzi təxirəsalınmaz məsələləri də həll etməliyik.

1. Aparılan müşahidələr və monitorinqlərin nəticəsi onu deməyə əsas verir ki, bu gün karantin rejimini pozanlar arasında günəmuzd fəaliyyətlə məşğul olanlar az deyil. Ona görə də bu cür vətəndaşlara dövlət tərəfindən bir aylıq kompensasiya verilməsi məsələsi tezləşdirilməlidir.

2. Azyaşlı və məktəbli uşaqların valideynləri tərəfindən marketlərə və digər ictimai yerlərə gətirilməsi qadağan edilməlidir.

3. 65 yaşdan yuxarı yaşlı vətəndaşlarımızın təqaüdlərinə müəyyən əlavələr edilməklə iki ay əvvəlcədən ödənilməsi imkanlarına baxılmalıdır.

4. Növbələr yaranmaması üçün bankomatların sayının artırlması və pensiyaçıların kamissiyon haqqı ödəmədən bütün bankların bankomatlarından pensiyalarını almaq imkanı yaradılmalıdır.

5. Ərzaq mağazaları və apteklər istisna olmaqla, həcmindən asılı olmayaraq, bütün ticarət və iaşə obyektəri, gözəllik və idman salonları və digər xidmət sahələri aprelin 20-nə kimi tam olaraq bağlanılmalıdır.

6. 10 nəfərdən çox adamın bir yerdə toplanması qadağası dəyişdirilib, iki-üç nəfərə endirilməlidir.

Bu gün ön cəbhədə olan bizim qəhrəman həkimlərimiz və digər tibb heyəti ilə də bağlı da bir neçə təklifim var. Birinci, ciddi ehtiyac olmadığı təqdirdə, bütün tibb işçilərinin tam heyətdə xəstəxanalarda olması indiki zamanda, məncə, doğru deyil. Biz zəruri olmadığı halda maaşları

ödənilmək şərti ilə tibb işçilərinin bir hissəsinə də soaial izolyasiya qaydalarını tətbiq etməklə, onları potensial olaraq koronavirusa yoluxmaq təhlükəsindən qurtara və onları ən pis ssenarilərə qoruyub saxlaya bilərik. Bilirsiniz ki, ÜST-in verdiyi açıqlamaya görə bir çox ölkələrdə virusa yoluxanların 10 faizi tibb işçiləridir. Bu isə epidemiyanın sürətlə yayılması şəraitində həmin ölkənin tam bir fəlakətlə qarşı-qarşıya qalması deməkdir.

İkinci, aprel ayı ərzində həm dövlət xəstəxanalarında, həm də özəl xəstəxanalarda təcili olmayan bütün tibbi əməliyyatlar dayandırılsın. Bu addımlar atılarsa, həm tibbi ləvazimatlara qənaət etmiş olarıq, həm də tibbi personalı daha etibarlı şəkildə qorumuş olarıq.

Üçüncü, xarici ölkələrdə işləyən bəzi vətənpərvər azərbaycanlı həkimlər bu çətin dövrdə ehtiyac olarsa, ölkəmizə dəstək verməyə hazır olduqlarını bildirirlər. Onların siyahısı hazırlanmalı və məlumat bankına daxil edilməlidir.

**Qeyd.** 200 nəfər məhbusun  məhkəmə qərarı ilə yerdə qalan cəzasını çəkməkdən azad edilməsi təqdir olunmalıdır. Ümid edirik ki, bu istiqamətdə iş davam edəcək.